AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET
1931-ci ildən
nəşr olunur

29 iyul 2016-cı il № 45-48 (9051) Qiymәti 50 qәpik

## BU SAYIMIZDA

### *Almaniya Bundestaqının üzvü:* "Azərbaycan ərazilərinin işğalına son qoyulmalıdır"

*Almaniya Bundestaqının üzvü, parlamentdə Xristian-Sosialistlər İttifaqının (XSİ) regional fraksiyasının baş katibi Maks Straubinger Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sorğusuna cavab olaraq açıqlama verib. Açıqlamada deyilir: "Almaniya parlamentində XSİ regional fraksiyası üçün tam aydındır ki, beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyünə hörmət şübhə altına alınmamalı, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməlidir.*

Səh. 2

### AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 747,4 MİN NƏFƏRƏ ÇATIB

***Bu ilin yanvar-may aylarında Azərbaycan əhalisinin sayı 41,8 min nəfər və ya 0,4 faiz artaraq iyun ayının 1-i vəziyyətinə 9 milyon 747,4 min nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 112 nəfər olub. Ölkə əhalisinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Səh. 3

### İyunda Ceyhan limanından 2,1 milyon tondan çox Azərbaycan nefti dünya bazarına çıxarılıb

***Bu ilin iyununda 2 milyon 143 min 253 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1 milyon 424 min 400 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib. Cari ilin yanvar-iyun aylarında Ceyhan limanından ixrac edilən neftin həcmi 14 milyon 774 min 660 ton olub.

Səh. 5

### QLOBAL TEMPERATUR GÖSTƏRİCİLƏRİ YENİ REKORDLAR VURUR

***BMT** Xəbərlər Mərkəzi xəbər verir ki, alimlərin məlumatına görə, 2016-cı il meteoroloji müşahidələrin bütün tarixi ərzində ən isti yay ola bilər. İlin birinci yarısının orta temperaturu XIX əsrin sonunda başlayan sənayeləşmədən əvvəlki göstəriciləri Selsi ilə 1,3 dərəcə geridə qoyub.*

Dünya Meteorologiya Təşkilatının (DMT) nümayəndəsi Devid Karlson deyib: "Söhbət orta göstəricidən yüksək göstəricilərdən getmir. Biz əvvəllər qeydə alınmış bütün rekordları üstələyən göstəricilərdən danışırıq.

Səh. 7

### AZƏRBAYCAN MİLLİSİ BƏDİİ GİMNASTİKA ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINI 1 MEDALLA BAŞA VURUB

***İyulun 24-də Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə Dünya Kuboku yarışlarına yekun vurulub. İdmansevərlərimiz ilin əsas hadisəsi olan Rio Olimpiadasından iki həftə əvvəl dünyanın 17 ölkəsindən məşhur gimnastların çıxışlarını izləmək imkanı əldə ediblər.***

Yarışın sonuncu – üçüncü günündə gimnastlar fərdi proqram üzrə final yarışına çıxıblar.

Səh. 8

***"Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə***

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" 2016-cı il martın 17-də Seul şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 iyun 2016-cı il.***

***Biz London Yay Olimpiya Oyunlarında 53 idmançı ilə iştirak etmişik və bildiyiniz kimi, böyük qələbə - 10 medal qazanmışıq, onlardan 2-si qızıl medaldır. Bu dəfə isə daha da böyük heyətlə iştirak edəcəyik və əlbəttə ki, yaxşı nəticələr gözləyirik. Bunu deməyə əsas var. Çünki idmançılarımız son dörd il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında bizi sevindiriblər, ölkəmizin şöhrətini ucaldıblar və müxtəlif yarışlardan Vətənə böyük qələbələrlə qayıdıblar. Əminəm ki, Rio-de-Janeyroda da idmançılarımız vətənpərvərlik, peşəkarlıq, əzmkarlıq göstərərək ölkəmizi layəqətlə təmsil edəcəklər.***



Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirmişdir. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançılarımızın uğurlarıdır və idmançılara göstərilən dövlət qayğısıdır.

... Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya idman mərkəzi yaradılmışdır, tikilmişdir. Bakıda isə idman infrastrukturu ən yüksək səviyyədədir. Təkcə son bir-iki il ərzində bir neçə gözəl, möhtəşəm idman obyekti istifadəyə verilmişdir – Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı. Bu idman obyektləri, eyni zamanda, gözəl memarlıq əsərləridir. Bu binalar, bu qurğular Bakını daha da gözəlləşdirir. Bu idman obyektlərinin ətrafında böyük abadlıq, təmizlik işləri aparılmışdır. Bakı Olimpiya Stadionunun ətrafı ekoloji fəlakət zonası idi. Bir tərəfdən bataqlıq, digər tərəfdən Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Bütün o ərazilər təmizləndi, neftlə və digər tullantılarla çirklənmiş torpaqlar oradan çıxarıldı, böyük abadlıq işləri aparıldı. Böyükşor gölünün bir hissəsi tamamilə təmizləndi, 1 kilometr uzunluğunda yeni bulvar, parklar salındı. Su İdmanı Sarayının ətrafı da əvvəllər neft mədənləri idi. Onlar da oradan götürüldü, təmizləndi. Bu gün Su İdmanı Sarayının ətrafında 10 hektarlarla ölçülən gözəl park salınıb və Bakı vətəndaşları bu imkanlardan istifadə edirlər.

Biz bu işləri görərkən bir neçə məqsədi güdürdük. Əlbəttə ki, Avropa Oyunlarının keçirilməsi üçün Bakıya yeni idman obyektləri lazım idi. Eyni zamanda, ekoloji məsələlər də öz həllini tapmışdır, şəhərimizin gözəlləşməsi, abadlaşması daha da sürətlə getmişdir.

İdman infrastrukturunun xüsusilə regionlarda yaradılması imkan verir ki, bölgələrdə yaşayan uşaqlar, gənclər idmanla məşğul olsunlar. Mən bütün regional Olimpiya mərkəzlərinin açılışlarında şəxsən iştirak etmişəm və demişəm, bizə vəzifə ondan ibarətdir ki, biz idmanın kütləviliyini təmin edək. Əlbəttə, bizə qələbələr, çempionlar lazımdır və bu, bizdə var. Amma, eyni zamanda, bizə sağlam gənclər, sağlam millət lazımdır. İdmanla məşğul olan uşaq, yeniyetmə fiziki cəhətdən sağlam olur. Eyni zamanda, yüksək mənəvi keyfiyyətlərə də malik olur.

Bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox layaqətlə aparırlar. Bu, bir davranış nümunəsidir. Uşaqlar, yeniyetmələr, idmanla məşğul olmaq istəyənlər də, bax, sizə - burada əyləşən idmançılara oxşamalıdırlar. Onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü layaqətlə aparırsansa öz həyatını layaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

....Biz öz yolumuzla gedirik. İdman uğurları ölkəmizin uğurlarının tərkib hissəsidir. Ancaq güclü dövlətlərdə güclü idman var. Olimpiya Oyunlarının nəticələrinə baxın. Hansı komandalar birinci yerlərdədir. Onların böyük əksəriyyəti inkişaf etmiş ölkələrin komandalarıdır. Yəni, idmanı ümumi inkişafdan ayırmaq olmaz. Ona görə, Azərbaycan idmanının inkişafı ümumi inkişafımızın təzahürüdür. Əgər bizdə iqtisadi, maliyyə müstəqilliyi olmasaydı və biz iqtisadi cəhətdən inkişaf etməsəydik, idmanın inkişafına istədiyimiz səviyyədə vəsait qoya bilməzdik. Amma bu gün bir daha demək istəyirəm ki, Azərbaycan inamla, uğurla inkişaf edir, 2016-cı ildə də qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan bölgədə təhlükəsizlik, sabitlik və inkişaf məkanıdır. Əminəm ki, bizim rolumuz həm bölgədə, həm dünyada getdikcə artacaq.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*(Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin iyulun 18-də rəsmi yolasalma mərasimindəki nitqindən)*

## RİO OLİMPİYA KƏNDİNDƏ AZƏRBAYCAN BAYRAĞI AVQUSTUN 3-DƏ QALDIRILACAQ

*Azərbaycanın Olimpiya millisi avqustun 1-də axşam saatlarında Rio-de-Janeyroya yola düşəcək.*



Komandamız 14 saatlıq uçuşdan sonra avqustun 2-də səhər saat 09:30-da Braziliyaya çatacaq. Bir gün sonra Olimpiya Kəndində Azərbaycan idmançılarının salamlama və üçrəngli bayrağımızın qaldırılması mərasimi təşkil olunacaq.

Komandamız böyük tərkibli heyətlərə daxildir. Ölkəmiz Olimpiya Oyunlarında 56 idmançı ilə təmsil olunacaq.

Millimiz Olimpiya Kəndində Portuqaliya və Slovakiya yığmaları ilə eyni binada məskunlaşacaq.

Qeyd edək ki, iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya və XV Paralimpiya Oyunlarında Azərbaycan idmançıları, əlil idmançılar və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafat məbləğlərinin müəyyən edilməsi ilə bağlı sərəncamlar imzalayıb.

Sərəncamlara əsasən, XXXI Yay Olimpiya Oyunlarında birinci yeri tutan hər bir idmançıya 400 min manat, onun məşqçisinə 200 min manat məbləğində mükafat veriləcək. Olimpiadada ikinci yeri tutan hər bir idmançıya və məşqçiyə müvafiq olaraq, 200 min və 100 min manat məbləğində mükafat nəzərdə tutulub. Üçüncü yeri tutan idmançı 100 min manat, onun məşqçisi isə 50 min manat məbləğində mükafatlandırılacaq.

Bundan başqa, XV Yay Paralimpiya Oyunlarında birinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə 100 min manat mükafat veriləcək. İkinci yerə layiq görülən idmançı 100 min manat, onun məşqçisi 50 min manat məbləğində mükafatlandırılacaq. Üçüncü yeri tutan hər bir paralimpiyaçı idmançıya 50 min manat, onun məşqçisinə isə 25 min manat məbləğində mükafat nəzərdə tutulub.

İdmançılarımızın hər birinə Olimpiya medallarının sevincini yaşamağı arzulayırıq!

***"DƏNİZ"***

## Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsinin 1-ci bəndini və 109-cu maddəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılsın və kütləvi informasiya vasitələrində dərc edilsin (layihə əlavə olunur).

2. Ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin (referendumun) bu Sərəncamın 2-ci hissəsində göstərilən tarixdə keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti ümumxalq səsverməsinin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 iyul 2016-cı il.*

**L A Y İ H Ə**

## "AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ REFERENDUM AKTI

1. 9-cu maddənin I hissəsi aşağıdakı redaksiyada verilsin:

"I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.".

2. 24-cü maddədə:

2.1. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin:

"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.";

2.2. III hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqlardan sui-istifadəyə yol verilmir.".

3. 25-ci maddədə:

3.1. III hissənin birinci cümləsində "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə, ikinci cümləsində "milli" sözü "etnik" sözü ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda VI hissə əlavə edilsin:

"VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.".

4. 29-cu maddədə:

4.1. V hissə VII hissə hesab edilsin;

4.2. aşağıdakı məzmunda V və VI hissələr əlavə edilsin:

"V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.

VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.".

5. 32-ci maddəyə aşağıdakı məzmunda VI, VII və VIII hissələr əlavə edilsin:

"VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.

VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.

VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.".

6. 36-cı maddədə:

6.1. II hissədən "və digər silahlı birləşmələrdə" sözləri çıxarılsın;

6.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

"IV. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.".

7. 47-ci maddənin III hissəsində "sosial" sözündən sonra "və hər hansı digər meyara əsaslanan" sözləri əlavə edilsin.

8. 49-cu maddənin II hissəsində "etməklə" sözündən sonra ", ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə," sözləri əlavə edilsin.

9. 53-cü maddənin I hissəsində "heç bir halda" sözləri çıxarılsın və "vətəndaşlığından" sözündən sonra "(onun qanunla müəyyən edilmiş itirilmə hallları istisna olmaqla)" sözləri əlavə edilsin.

10. 56-cı maddənin III hissəsində "seçkilərdə iştirak etmək" sözləri "seçilmək" sözü ilə əvəz edilsin.

11. 57-ci maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.".

12. 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır.".

13. 59-cu maddədə:

13.1. maddənin mətni I hissə hesab edilsin və həmin hissədən "qanunla nəzərdə tutulmuş qaydada" sözləri çıxarılsın;

13.2. aşağıdakı məzmunda II hissə əlavə edilsin:

"II. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.".

14. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı

I. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

III. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.

IV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.".

15. 68-ci maddədə:

15.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ";

15.2. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin;

15.3. aşağıdakı məzmunda I və IV hissələr əlavə edilsin:

"I. Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.";

"IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.".

16. 71-ci maddənin II hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.".

17. 85-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin.

18. 89-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

"6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.".

19. Aşağıdakı məzmunda 981-ci maddə əlavə edilsin:

"Maddə 981. Azərbaycan Respublikası Milli Məclisinin buraxılması

I. Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

II. Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.".

20. 100-cü maddədən "Yaşı otuz beşdən aşağı olmayan," sözləri çıxarılsın.

21. 101-ci maddənin I hissəsində "5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.".

22. Aşağıdakı məzmunda 1031-ci maddə əlavə edilsin:

"Maddə 1031. Azərbaycan Respublikasının vitse-prezidentləri

I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.".

23. 105-ci maddədə:

23.1. I hissənin birinci cümləsində "üç ay ərzində" sözləri "60 gün müddətində" sözləri ilə, ikinci cümləsində "Baş naziri" sözləri "Birinci vitse-prezidenti" sözləri ilə əvəz edilsin;

23.2. II hissədə "Baş naziri" sözləri "Birinci vitse-prezidenti" sözləri ilə, "səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri" sözləri "müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini" sözləri ilə əvəz edilsin;

23.3. III hissə aşağıdakı redaksiyada verilsin:

"III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.";

23.4. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

"IV. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş nazirinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir. Həmin səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.".

24. Aşağıdakı məzmunda 1061-ci maddə əlavə edilsin:

"Maddə 1061. Azərbaycan Respublikası vitse-prezidentlərinin toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır.

II. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

III. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

IV. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.".

25. Aşağıdakı məzmunda 1081-ci maddə əlavə edilsin:

"Maddə 1081. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin təminatı

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.".

26. Aşağıdakı məzmunda 1101-ci maddə əlavə edilsin:

"Maddə 1101. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi

Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər.".

27. 121-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.".

28. 126-cı maddənin I hissəsində "Yaşı 30-dan aşağı olmayan, seçkilərdə" sözləri "Seçkilərdə" sözü ilə əvəz edilsin.

29. Aşağıdakı məzmunda 1461-ci maddə əlavə edilsin:

"Maddə 1461. Bələdiyyələrin məsuliyyəti

Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.".

## *Almaniya Bundestaqının üzvü:* "Azərbaycan ərazilərinin işğalına son qoyulmalıdır"



***Almaniya Bundestaqının üzvü, parlamentdə Xristian-Sosialistlər İttifaqının (XSİ) regional fraksiyasının baş katibi Maks Straubinger Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sorğusuna cavab olaraq açıqlama verib. Açıqlamada deyilir: "Almaniya parlamentində XSİ regional fraksiyası üçün tam aydındır ki, beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyünə hörmət şübhə altına alınmamalı, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməlidir. Şübhəsiz ki, Azərbaycan ərazilərinin beynəlxalq hüquqa zidd olan işğalına son qoyulmalı və məcburi köçkünlərə öz evlərinə geri qayıtmağa şərait yaradılmalıdır. Münaqişənin sülh yolu ilə həlli bütövlükdə regionun stabilləşdirilməsinə töhfə verəcək".***

Almaniya Bundestaqının üzvü bildirib ki, 1992-ci ildən ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar nəticəsində sülh sazişi ("Madrid prinsipləri") üçün ərazi bütövlüyü, münaqişənin sülh yolu ilə həlli və xalqların öz müqəddəratını həll etmək prinsiplərinə əsaslanan səmərəli yolu tapıldı. Təəssüf ki, kifayət qədər vaxt sərf olunmasına baxmayaraq, danışıqlarda tərəqqi baş vermədi. Hətta 2016-cı ilin aprel ayında münaqişə yenidən alovlandı və bu, hər iki tərəfdən mülki insan itkisinə səbəb oldu. "Biz bu gərginləşmə ilə bağlı təəssüfümüzü bildirir, xüsusilə də mülki əhalinin həlak olması faktını pisləyirik", - deyə açıqlamada qeyd edilir.

XSİ regional fraksiyası hesab edir ki, Almaniya hazırda ATƏT-in sədri qismində münaqişənin yenidən alovlanmasının qarşısını almaq və sülhə gətirəcək yolun tapılması üçün əlindən gələni etməyə məsuliyyət daşıyır. Ona görə də biz möhkəm atəşkəs, etimad quruculuğu tədbirləri və danışıqların yenidən başlanmasını istəyirik. Almaniya hökuməti, həmçinin bu hədəflərin həyata keçməsi üçün kampaniya aparır: xarici işlər naziri Frank-Valter Ştaynmayer bu yaxınlarda siyasi danışıqlar aparmaq üçün Cənubi Qafqaza səfər etmişdi. İyulun 1-də Tbilisidə keçirilən ATƏT Parlament Assambleyasının konfransında o, düzgün olaraq vurğuladı ki, ATƏT ərazisində dalana dirənmiş münaqişələrin sürətli və sürpriz həllini gözləmək olmaz. Lakin Almaniya tədricən tərəflər arasında minimum qarşılıqlı inamın yaranmasına və orada yaşayan əhalinin gündəlik həyatının asanlaşdırılmasına çalışır.

Xarici işlər naziri əmin etdi ki, Almaniya intensiv şəkildə çalışacaq ki, ATƏT-in Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsinin missiyasının komandası artsın və hərbi insidentlərin tədqiqat mexanizmi yaradılsın, daha gücləndirilmiş monitorinq vasitəsilə atəşkəs rejiminin sabitləşməsinə nail olunsun. Bundan sonra ciddi danışıqların aparılması üçün ilk addım atmaq mümkün olacaq. Bundan əlavə, Almaniya çalışır ki, ATƏT-in Minsk qrupu danışıqlar prosesini yenidən canlandırsın və intensivləşdirsin. Məqsəd status-kvonu möhkəmləndirmək deyil, münaqişənin həlli prosesində tərəqqiyə nail olmaqdır. Bu ikitərəfli yanaşma XSİ regional fraksiyası tərəfindən dəstəklənir. Lakin qarşı tərəflərin rolu çox mühümdür: onlar münaqişədə istənilən gərginləşmədən imtina etməli və danışıqlar prosesini çətinləşdirən şərtlər qoymaqdan çəkinməlidirlər. Əks təqdirdə, real dialoqa nail olmaq mümkün olmayacaq.

## Mövlud Çavuşoğlu: "Türkiyədə dövlət çevrilişinə cəhddən dərhal sonra Azərbaycan bizə güclü dəstək verdi"



***Türkiyədə dövlət çevrilişinə cəhddən dərhal sonra gözlədiyimiz kimi, qardaş Azərbaycan bizə güclü dəstək verdi. Azərbaycanlı qardaşlarımız yalnız telefonlarla deyil, həm də atdıqları addımlarla Türkiyənin yanında olduqlarını bir daha göstərdilər. Qardaşlıq da məhz budur. Bir millət olmaq bunu tələb edir.***

Bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Habertürk" televiziyasına müsahibəsində deyib.

Müsahibəsində, həmçinin Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması istiqamətində danışıqların son vaxtlar intensivləşdiyini vurğulayan M.Çavuşoğlu deyib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Rusiyanın, Minsk qrupu həmsədrlərinin təşəbbüsləri artıb. Bildiyimiz kimi, Sankt-Peterburqda Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirildi və bəzi təkliflər oldu. Biz bütün bu məsələlərdə hər zaman Azərbaycanın yanındayıq. Azərbaycana son səfərim zamanı qardaş ölkənin məsələnin həlli ilə bağlı qəbul edəcəyi bütün təklifləri dəstəkləyəcəyimizi və bəzi məsələlərdə birlikdə addımlar ata biləcəyimizi də müzakirə etdik".

# YÜKSƏK MÜKAFATLAR SAHİBLƏRİNƏ TƏQDİM EDİLDİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyun 2016-cı il tarixli Sərəncamları ilə dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə Gəmiçiliyin 9 işçisi "Tərəqqi" medalı ilə təltif edilmiş, 1 nəfər "Əməkdar mühəndis" fəxri adına, 2 nəfər isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.*










İyulun 27-də Gəmiçiliyin inzibati binasında mükafatların təqdim olunması tədbiri keçirildi. Çıxışına təltif sevincini yaşayan əməkdaşları təbrik etməklə başlayan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev dövlət başçısının müvafiq Sərəncamlarını Gəmiçiliyin bütün kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirdi.

Bütün sahələrdə olduğu kimi, dəniz nəqliyyatına münasibətdə də Ulu öndərin siyasi kursunu uğurla davam etdirdiyini vurğulayan sədr, Gəmiçiliyin inkişafına, dənizçilərə göstərdiyi diqqət və qayğıya görə möhtərəm Prezident İlham Əliyev cənablarına dərin minnətdarlığını bildirdi, dövlətimizin daha da qüdrətlənməsi üçün kollektivin hər bir üzvünün bundan sonra daha əzmlə çalışacağına əminliyini ifadə etdi.

Ölkəmizdə dəniz nəqliyyatının inkişafına xüsusi əhəmiyyət verildiyini diqqətə çatdıran natiq, Gəmiyyət yaranandan sonra Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində görülən mühüm işlərdən, həyata keçirilən islahatlardan, əldə olunan nailiyyətlərdən ətraflı söz açdı.

Sonra mərasim iştirakçılarının alqışları altında əməkdə fərqlənən bir qrup işçiyə yüksək dövlət mükafatları və Gəmiçiliyin Fəxri fərmanları təqdim edildi.

***"DƏNİZ"***

## Korporativ idarəetmə üzrə Hesabat təqdim edildi

***İyunun 21-də "Ernst & Young" beynəlxalq audit şirkəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də korporativ idarəetmə sahəsində mövcud vəziyyətin diaqnostikasına dair Hesabatını təqdim edib. Bu layihənin məqsədi Gəmiçiliyin korporativ idarəetmə sisteminin aparıcı dünya təcrübəsinə uyğunlaşdırılması üçün təkmilləşdirilməsi və gücləndirilməsi, onun effektivliyinin artırılmasıdır.***

Ernst & Young Gəmiçilikdə müvafiq daxili sənədləri təhlil edib, struktur bölmələrin rəhbərləri ilə müsahibələr aparıb, korporativ idarəetmə sisteminin milli və beynəlxalq tənzimləyicilərin (G20 / İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tələblərinə uyğunluğunu qiymətləndirib, ayrı-ayrı komponentlərin təkmilləşdirilməsinə dair tövsiyələrini və yol xəritəsini hazırlayıb.

Qeyd edək ki, korporativ idarəetmə - bütün riskləri nəzərə almaqla, şirkətin öz hədəflərinə biznes etikası normalarına riayət olunmaqla çatmaq üçün tətbiq etdiyi sistemdir. Gəmiçiliyin rəhbərliyi yaxın dövrdə korporativ idarəetmə üzrə müvafiq reytinqin alınmasını nəzərdə tutub.

**MİNNƏTDARLIQ**

## Mükafatın məsuliyyəti də böyükdür

Ölkə başçısının peşə bayramı ərəfəsində - 2016-cı il iyunun 24-də imzaladığı Sərəncamlarla dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə 15 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 2 nəfər "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş, 4 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Təltif sevincini yaşayanlardan biri də mənəm. Bu sevincin nə olduğunu isə yalnız onu yaşayanlar bilər. "Tərəqqi" medalı ilə təltif olunduğuma görə, ən əvvəl möhtərəm Prezidentimizə minnətdaram. Təqdimata görə isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə dərin minnətdarlığımı bildirirəm.

Yüksək mükafat bütün tətif olunanlar kimi, mənə də qol-qanad verib. Çalışacağam ki, mənə göstərilən yüksək etimadı sular qoynunda uğurlu səfərlərlə doğruldum.

***İlyas Sadıqov,***
***kapitan***

## Etimadı əməli işimlə doğruldacağam

***Nə gizlədim, möhtərəm Prezidentimiz İlham Əliyevin "Dənizçi günü" ərəfəsində imzaladığı Sərəncamla mənim də "Tərəqqi" medalı ilə təltif olunduğumu eşidəndə, düzü əvvəlcə inanmadım. Sonra qəlbimi çox xoş duyğular bürüdü.***

Yüksək təltifə görə, ən əvvəl dənizçilərdən diqqət və qayğısını heç vaxt əsirgəməyən möhtərəm Prezidentimizə minnətdaram. Təqdimata görə isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə dərin minnətdarlığımı bildirirəm.

Tanıyanlar bilirlər ki, işimə həmişə vicdanla yanaşmışam. Buna baxmayaraq, əməyimin belə yüksək qiymətləndiriləcəyi heç təsəvvürümə də gəlməzdi. Çalışacağam ki, mənə göstərilən yüksək etimadı əməli işimlə layiqincə doğruldum.

***Rza Panəliyev,***
***XDND-nin Dəniz üzgüçülüyünün təhlükəsizliyi xidmətinin rəisi***

# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 747,4 MİN NƏFƏRƏ ÇATIB

***Bu ilin yanvar-may aylarında Azərbaycan əhalisinin sayı 41,8 min nəfər və ya 0,4 faiz artaraq iyun ayının 1-i vəziyyətinə 9 milyon 747,4 min nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 112 nəfər olub. Ölkə əhalisinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.



Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-may ayları ərzində ölkədə 65,3 min doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 16,3 təşkil edib. Doğulan körpələrin 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 1174-ü əkiz, 30-u isə üçəm doğulub.

Cari ilin yanvar-may aylarında ölkədə 24,3 min ölüm halı qeydə alınıb, əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,1 olub.

# ÖLKƏMİZDƏ İQTİSADİ FƏAL ƏHALİNİN SAYI 4953,1 MİN NƏFƏR OLUB

***Bu il iyulun 1-nə Azərbaycanda iqtisadi fəal əhalinin sayı 4953,1 min nəfər olub. Onlardan 4707,9 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib.***

Bu barədə Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilir.

İyunun 1-nə muzdla işləyənlərin sayı 1501,7 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 891,3 min nəfər, qeyri-dövlət sektorunda isə 610,4 min nəfər olub. İqtisadiyyatın neft sektorunda 34,4 min nəfər, qeyri-neft sektorunda isə 1467,3 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 21,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,5 faizi tikintidə, 6,1 faizi emal sənayesində, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,2 faizi mədənçıxarma sənayesində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 22,6 faizi təhsil, 18,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi istirahət, əyləncə və incəsənət, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi maliyyə və sığorta fəaliyyəti, 1,7 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

## Üzən tankerlərdəki neftə alıcı tapa bilmirlər

**Şimal dənizində xam neftlə yüklənmiş tankerlərin sayı artmaqdadır.**

"APA-Economics" "Bloomberg" agentliyinə istinadən xəbər verir ki, bu, xam neftə olan tələbatın zəifləməsinin daha bir göstəricisidir.

Şimal dənizində xam neftlə yüklənmiş gəmilərin sayı 2009-cu ildən etibarən ən yüksək həddə çatıb.

Hazırda Şimal dənizində 9 tanker var ki, onlar 9 mln. barrel neft daşıyır. Mayda bu göstərici 7 mln. barrel olub.

Treyderlər bildirir ki, iyunun sonuna dünya üzrə tankerlərdə saxlanılan neftin həcmi 95 mln. barrelədək artıb.

Beynəlxalq Enerji Agentliyi bildirir ki, indiyədək neftə olan tələbat 2008-2009-cu illərdə ən aşağı həddə enib.

Şimal dənizində üzən tankerlərdəki neftə alıcı tapmaq mümkün deyil. Yaranmış vəziyyət onu deməyə əsas verir ki, tankerlər hələ bir müddət Böyük Britaniya sahilləri yaxınlığında üzməyə davam edəcək. Treyderlər bildirir ki, aprelin 23-dən etibarən İngiltərə yaxınlığında üzən "Maran Thetis" supertankerinə yüklənən neft hələ də satılmayıb.

Dünyanın ən iri müstəqil neft treyderi olan "Vitol Group" şirkətinin baş icraçı direktoru Yan Teylor bildirib ki, indiki vəziyyətdə kontanqo (neft nəqli zamanı ödənilən premiya) o qədər yüksək səviyyədə deyil, beləliklə, neftin saxlanılması sərfəli olmur.

DƏNİZ
29 iyul 2016-cı il № 45-48 (9051)

## TƏBRİK EDİRİK!

# ÜRƏYİ HƏMİŞƏ DƏNİZLƏ, GƏMİÇİLİKLƏ DÖYÜNƏN YUBİLYAR

*"Ömrünün əlli ikinci ilini yaşayan uzaq səfərlər kapitanının taleyindən gileylənməyə haqqı yoxdur. Əlini dənizə ona görə uzadıb ki, ömrü boyu kiməsə əl açmasın. Səxavətdə heç kəsdən geri qalmayan dəniz də ona çox şey bəxş edib. Əlbəttə, özünə inamı da az rol oynamayıb. Hər halda bu ittifaqdan, bu sevgidən özü də udub, Xəzər də.*



**Sən çıxanda dənizlərə, dənizlər də sevindi,**
**Sular qoynu ocağındı, sular qoynu evindi.**
**Sinəndəki odlu ürək heç Xəzərsiz döyündü?**
**Darıxanda çıx Xəzərə, göy sularda gəz bir az."**

***Bu sətirlər "Dəniz" qəzetinin 1998-ci il 4 noyabr tarixli nömrəsində dərc olunmuş "O, Xəzərsiz, Xəzər onsuz darıxır" sərlövhəli oçerkdəndir. On səkkiz il əvvəl qələmə aldığım bu yazı bilirsiniz kimə həsr olunub? Bu günlərdə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş Gəmiçiliyin baş müşaviri Muxtar Bəhram oğlu Axundova.***

Muxtar müəllimin bu günlərdə həm də yetmiş yaşı tamam olub. Onu çoxdan tanımasaydım, yetmiş yaşı olduğuna inanmazdım. Təkcə ona görə yox ki, illər çöhrəsinə əl gəzdirə bilməyib. Gözlərindəki həyat eşqi, hərəkətlərinin çevikliyi, nikbin ruhu yaşından qat-qat cavan göstərir onu. Belə qalmasında yəqin bütün həyatını dənizə, Gəmiçiliyə həsr etməsindən doğan məmnunluq duyğuları da az rol oynamayıb. Adətən, insan sevdiyi işlə məşğul olanda vaxtın necə keçdiyini hiss etmir. İllərin onu qocaltmağa gücü çatmır, özünü yaşından çox cavan, gümrah hiss edir. Muxtar Axundov kimi!

Bununla belə, yetmiş yaş ömrün müdriklik çağı, kamillik dövrüdür. Bu yaşda dünənə kimi aşılmaz saydığın hər şey insanın zəkası, təcrübəsi, dünyagörüşü qarşısında baş əyir. Elə buna görə bu yaşda insan özünü cavanlığında olduğundan daha güclü, daha inamlı hiss edir.

Yadıma "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin Muxtar müəllim haqqında dediyi bu sözlər düşdü:

- Muxtar müəllim Cəmiyyət yaranan ilk günlərdən güvəndiyim, etibar etdiyim adamlardandır.

Muxtar Bəhram oğlu Axundov 1946-cı il iyulun 1-də Salyan rayonunda anadan olub. 1967-ci ildə Bakı Dəniz Yolları Məktəbini, 1987-ci ildə Odessa Ali Dəniz Mühəndisləri Məktəbini gəmi sürücülüyü ixtisası üzrə bitirib.

Bakı Dəniz Yolları Məktəbini fərqlənmə diplomu ilə bitirdiyindən əmək fəaliyyətinə xaricə üzən donanmada başlayıb - "Desna" gəmisində matros üzüb. Əslində Muxtar müəllimin xarici səfərlərinin tarixi daha tez, müdavimlik illərindən başlayıb. İkinci kursda əlaçılardan ibarət 40 nəfərlik qrupun tərkibində Herson Dəniz Yolları Məktəbinin "Tovariş" gəmisində istehsalat təcrübəsi keçib. Sonra "Syürupa" gəmisində kapitanın üçüncü, daha sonra ikinci köməkçisi üzüb. 1973-cü ildə "Lenin", 1975-ci ildə "Şonqar"da böyük köməkçi olub. 1977-ci ildə "Rəşid Behbudov" gəmisinin göyərtəsinə əvvəlcə kapitanın böyük köməkçisi kimi qalxıb. İki il sonra isə bu gəmidə kapitanı əvəz etməyə başlayıb. 1965-1999-cu illərdə səfər coğrafiyasına dünyanın onlarla ölkəsinin – Almaniya, İsveç, Niderland, Belçika, Böyük Britaniya, Fransa, İspaniya, Portuqaliya, İtaliya, Yunanıstan, Əlcəzair, Tunis, Yuqoslaviya, Misir, Suriya, Türkiyə, BƏƏ, Yəmən, Hindistan, Bolqarıstan, Rumıniya, Kiprin... adı düşüb. Üzdüyü dənizlərin, yan aldığı limanların hər biri ilə bağlı o qədər maraqlı xatirələri var ki! 1984-cü ildən gəmi-bərələrin heyətlərinə başçılıq edib. 1993-cü ildən Xəzər Dəniz Gəmiçiliyinin Baltik, Aralıq və Qara dəniz limanları arasında müntəzəm səfərlər edən sərnişin gəmi-bərələrinin kapitanı üzüb.

Bir vaxtlar dənizçi peşəsinin sirlərini öyrətdiyi, arxa durduğu yetişdirmələrinin sorağı bu gün dünya sularından, müxtəlif gəmiçilik şirkətləri və administrasiyalardan gəlir.

1999-2003-cü illərdə Xəzər Dəniz Gəmiçiliyinin Türkiyə Respublikasında nümayəndəliyinin rəisi olub. 2003-cü ildə Xəzər Dəniz Gəmiçiliyi rəisinin xarici iqtisadi əlaqələr və marketinq üzrə müavini vəzifəsinə irəli çəkilib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaranandan sonra bir müddət sədrin birinci müavini vəzifəsində çalışıb. Hazırda Gəmiçiliyin baş müşaviridir.



Bir sözlə, çoxlarına örnək olan şərəfli və mənalı bir ömür yaşayır. Təkcə bu fakt – ömrünün təxminən 50 ilini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə həsr etməsi onun xarakteri, mənəvi kamilliyi, peşəyə sədaqəti barədə çox şey deyir.

Yüksək əxlaqi dəyərləri özündə birləşdirən şəxsiyyət, gəmiçilik həyatının bütün incəliklərinə bələd olan kadr kimi hər cür ehtirama layiqdir. Və insafən, Gəmiçilikdə hamı ona bu ehtiramla da yanaşır. Gəmiçiliyin inkişafı və tərəqqisi sahəsində göstərdiyi xidmətlər də layiqincə qiymətləndirilmişdir. 1970-ci ildə "Əməkdə fərqlənməyə görə", 2011-ci ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. "Dəniz Donanmasının fəxri işçisi"-dir.

- Gəmiçiliyin gələcəyi indi gördüyümüz işlərdən asılıdır. Cəmiyyətin gələcəyini necə görürsünüz?-deyə Muxtar müəllimdən soruşdum.

Dedi:

- Əslində Cəmiyyət yaranandan sonra keçən qısa zamanda çox böyük işlər görülüb və hər şey yaxşılığa doğru sürətlə dəyişir. Ən əsası, bu gün Gəmiçilikdə çalışan hər kəsdə sabah daha yaxşı olacağına böyük inam var. Gəmiçilik qarşıya qoyulan məqsədə doğru inamla addımlayır və mən əminəm ki, yaxın gələcəkdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi deyəndə hər kəsin gözləri önündə müasir, çevik, rəqabətədavamlı bir şirkət canlanacaq.

- Böyük gəmiyə böyük də dərya gərək. Böyük dəryaya da böyük ürək. Bu fikrə münasibətiniz?

- Böyük ürək və cəsarət bütün böyük işlərdə həlledici rol oynayır.

- Gəmiçilik sizə nə verdi?

- Çox şey. Gəmiçilk mənim üçün həyat məktəbi oldu.

- Göz dəyməsin, yaşınıza görə cavan görünürsünüz. Sirrini bilmək olar?

- Ürəyimdə yamanlığa, paxıllığa heç vaxt yer olmayıb. Dostlarımın, tanışlarımın uğurlarına həmişə sevinmişəm.

- Minnətdarlıqla xatırladığınız adamlar çoxdur?

- Az deyil və hər birinin həyatımda müəyyən rolu olub. O dövrün tanınmış kapitanları Cabir Məmmədov, Ağarəşıd Ağasıyev, Əli Şirəliyev, İsa Fərmanovdan çox şey öyrəndim və öyrəndiklərim həmişə karıma gəldi.

- Özünüzü heç dünyanın xoşbəxti hesab etdiyiniz vaxtlar olub?

- Bəli! Lap kiçik yaşlarımdan dənizçi olmağı arzulamışam. Amma orta məktəbdə yaxşı oxuduğum üçün qohumlarımın əksəriyyəti dənizçi olmağımı istəmirdi. Həm də, balacaboy, cılız uşaq olduğumdan yəqin düşünürdülər ki, fırtınalar qoynunda davam gətirə bilməyəcəyəm. Lakin dənizdən başqa özümü hər hansı sahədə təsəvvür edə bilmirdim. Həm də , məhz kapitan olmaq istəyirdim. Uzaq səfərlər kapitanı! Qohumlar məni fikrimdən döndərməyin mümkün olmadığını görüb, nəhayət inadlarından əl çəkdilər. İlk dəfə gəminin göyərtəsinə qədəm basanda, kapitan kimi ilk səfərə çıxanda sanki, dünyada məndən xoşbəxt adam yox idi. Başqalarına yaxşılıq edəndə də özümü yaxşı hiss edirəm. Mənə elə gəlir ki, insan dünyaya yaxşılıq etmək üçün gəlir. Vay o adamın halına ki, yaxşılıq etməyi bacarmasın və ya yaxşılıq etməyə imkanı olsa da yaxşılıq etmək barədə düşünməsin.

- Bəs özünüzü mühakimə etdiyiniz vaxtlar necə?

- Çox olub.

- Dövlətimizin başçısı bu dəfə də "Dənizçi günü"nü Gəmiçiliyin çoxminli kollektivi üçün ikiqat bayrama çevirdi. Peşə bayramı ərəfəsində yüksək etimad göstərilənlərdən biri də siz oldunuz. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görüldünüz. Gözləyirdiniz?

- Yox. Elə buna görə ilk növbədə dövlətimizin başçısına, təqdimata görə isə Rauf müəllimə minnətdaram.

- Həyatda gözlənilməz hadisələr tez-tez baş verir. Nə vaxtsa, vicdanınızın əleyhinə getdiyiniz olub?

- Bəlkə inanmayacaqsınız, yox.

- Övladlarınızdan yolunuzu davam etdirən var?

- 2 oğlum, 1qızım var. Övladlarım başqa peşələrə könül veriblər və mən də onları fikirlərindən döndərməyə çalışmamışam. Həmişə düşünmüşəm ki, sular qoynu yalnız anadan dənizçi doğulanların yeridir.

***Mənə elə gəlir ki, insan seçdiyi peşəni necə sevirsə, peşəsi də onu elə "sevir". Muxtar müəllimin də dənizlə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi nəfəs aldığını hiss etmək o qədər də çətin deyil. Yüz yaşınızda da nə bu sevginiz azalsın, nə sizə olan sevgi, Muxtar müəllim!***

*Rasif TAHİROV*

# DÖVLƏT QULLUQÇUSUNUN ETİK DAVRANIŞ QAYDALARI MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLMİŞDİR

***Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında 2016-cı il iyulun 19-da "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamından irəli gələn tapşırıqların yerinə yetirilməsi məqsədilə "Dövlət qulluqçusunun etik davranış qaydaları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.***



Tədbirdə Administrasiyanın rəhbərliyi və Administrasiyada çalışan dövlət qulluqçuları iştirak etmişlər. Açılış nitqi ilə çıxış edən Administrasiyanın rəis müavini Şahlar Məmmədov dövlətin idarə olunmasında və dövlət orqanlarının nüfuzunun artırılmasında dövlət qulluqçularının rolundan, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan bəhs etmiş və qeyd etmişdir ki, hər bir dövlət qulluqçusu öz fəaliyyətində qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutmalı, etik davranış qaydalarına və prinsiplərinə əməl etməlidir.

Şahlar Məmmədov öz çıxışında "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının 31 may 2007-ci il tarixli 352-IIIQ nömrəli Qanununun müddəalarına toxunaraq qeyd olunan Qanunun əsas məqsədlərinin dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi, dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi, dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsiri imkanlarının genişləndirilməsindən ibarət olduğunu vurğulamışdır.

Daha sonra çıxış edən Administrasiyanın Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri, Etik davranış məsələləri üzrə məsul şəxsi Fərhad Məmmədov "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunun dövlət qulluqçusunun vicdanlı davranışı, loyallığı, dövlət orqanlarına və dövlət qulluqçusuna olan ictimai etimadın artırılmasında dövlət qulluqçusunun rolu, dövlət qulluqçusundan tələb olunan mədəni davranış, dövlət qulluqçusunun qərəzsizliyi, dövlət əmlakından və məlumatlardan istifadə zamanı tələb olunan davranış forması, konfidensiallığın qorunub saxlanmasına riayət edilməsi ilə bağlı normaları barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. F.Məmmədov Administrasiyada etik davranış qaydalarının əməl olunmasına ciddi nəzarət edildiyini, etik davranış barədə qanunvericiliyin tələblərinin pozulması faktlarının effektiv araşdırılması məqsədilə Administrasiyada qaynar xəttin 7 gün 24 saat aktiv olduğunu bildirmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 10 fevral 2014-cü il tarixli 021-Q nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"na əsasən Administrasiyada çalışan dövlət qulluqçularının xidməti fəaliyyətlərinin qiymətləndirilməsi sahəsində görülən işlər barədə, həmçinin vətəndaşların qəbulu, ərizə və şikayətlərinin elektron qaydada qəbul edilməsi və cavablandırılması üzrə görülən işlər barədə tədbir iştirakçıları məlumatlandırılmışdır.

F.Məmmədov qeyd etmişdir ki, ötən dövr ərzində həyata keçirilən tədbirlərin uğurlu nəticəsi olaraq Administrasiyada çalışan dövlət qulluqçularının qeyri-etik fəaliyyəti və ya xidməti fəaliyyəti dövründə hər hansı qanun pozuntusuna yol verməsi barədə ərizə və ya şikayət qeydə alınmamışdır.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

## Bu ilin altı ayında dəniz nəqliyyatı ilə 8 min sərnişin daşınıb

***Bu ilin yanvar-iyun aylarında dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi 2627,3 min ton təşkil edib. Yüklərin 45,2 faizini neft yükləri təşkil edib.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, dəniz limanlarında 4080,2 min ton yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 92,4 faizini tranzit yüklər təşkil edib. Bu il iyul ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 38,6 min ton idxal yükləri olub.

Ötən dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 dəfə artaraq 8 min nəfər olub.



## Liviya sahillərində 87 mühacirin cəsədi aşkarlanıb

***Liviyanın paytaxtı Tripolinin qərbində yerləşən Sabrata çimərliyində dalğaların sahilə çıxardığı 87 mühacirin cəsədi aşkarlanıb.***

"Əl-Cəzirə" telekanalı xəbər verir ki, hazırda həlak olanların cəsədlərinin DNT analizi aparılır.

Son zamanlar Yaxın Şərqdə vəziyyətin gərginləşməsi ilə əlaqədar bu regiondan mühacir axını sürətlə artıb. Liviyadan olan qaçqınların əksəriyyəti etibarsız qayıqlarla dənizi keçərək İtaliyaya çatmağa çalışır.

## İyunda Ceyhan limanından 2,1 milyon tondan çox Azərbaycan nefti dünya bazarına çıxarılıb



***Bu ilin iyununda 2 milyon 143 min 253 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1 milyon 424 min 400 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib. Cari ilin yanvar-iyun aylarında Ceyhan limanından ixrac edilən neftin həcmi 14 milyon 774 min 660 ton olub.

Ümumiyyətlə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) istismara verilən gündən bu il iyulun 1-dək Ceyhan limanından 305 milyon 962 min 432 ton Azərbaycan nefti dünya bazarına yola salınıb.



## Bu il BTC kəməri ilə 15 milyon tonadək Azərbaycan nefti nəql edilib

***Cari ilin iyununda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə 2 milyon 489 min 988 ton Azərbaycan nefti nəql olunub.***

SOCAR-ın mətbuat xidmətindən verilən məlumata görə, bu ilin yanvar-iyun aylarında kəmərlə 14 milyon 930 min 790 ton neft ötürülüb. BTC istifadəyə verilən gündən bu il iyulun 1-dək kəmərə 307 milyon 606 min 179 ton neft vurulub.

İyunda BTC kəməri ilə 371 min 206 ton Türkmənistan nefti nəql edilib.

## Bolqarıstan "İpək Yolu" nəqliyyat dəhlizini genişləndirmək istəyir



***"İpək Yolu" nəqliyyat dəhlizinin Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan ərazisindən keçməklə bu dəhlizi genişləndirmək istəyirik.***

"ajanshaber.com" saytı xəbər verir ki, bu sözləri Bolqarıstan prezidenti Rosen Plevneliyev deyib. Onun sözlərinə görə, Avropa və Asiyanın arasında ticarəti artırmaq üçün proqram hazırlanır və müvafiq işlər görülür.

Prezident bildirib ki, dəhlizin iqtisadi gücünü artırmaq üçün burada çəkilən dəmir yollarına böyük investisiyalar qoymağa hazırıq. Çin hökuməti ilə də danışıqların müsbət nəticə verəcəyini düşünərək danışıqlar aparılır. Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan Asiya-Avropa yolunun əsasını təşkil etməlidir.

## Rusiya ilə ABŞ birləşəcək?

***"Rusiya və ABŞ-ı tunellə birləşdirmək lazımdır." Bunu SİTA-ya müsahibəsində 1969-1981-ci illərdə Alyaska ştatını Senatda təmsil edən Maykl Qreyvel deyib.***

Siyasətçinin fikrincə, Rusiyanın Çukotka vilayəti və Alyaska ştatı arasında Berinq boğazının altı ilə yeraltı dəhlizin tikilməsi La-Manş boğazında tikilən tuneldən (1994-cü ildən Böyük Britaniya və Fransanı birləşdirir) daha çətin olmayacaq.

Qreyvel güman edir ki, Rusiya və ABŞ arasında yeraltı yolun uzunluğu təxminən 80 kilometr təşkil edəcək və nəticədə yeraltı yol dəmir yol şəbəkəsinə qoşulacaq. "Maqnit yastıqlar üzərində hərəkət edəcək qatarlar Kanadadan Alyaska vasitəsilə Rusiyaya, daha sonra "Yeni İpək Yolu" üzrə hərəkət edərdi", - keçmiş senator bildirib.

Siyasətçi hesab edir ki, layihənin reallaşdırılması üçün 30 ildən 50 ilə qədər vaxt lazım olacaq. Onun fikrincə, tuneldən istifadə hər iki ölkəyə hiss olunacaq səviyyədə iqtisadi xeyir gətirəcək.

Qeyd edək ki, Avrasiya və Şimali Amerikanı nəqliyyat əlaqəsi ilə bağlamaq ideyasını ilk dəfə 1890-ci ildə Kolorado ştatının qubernatoru Uilyam Qillin səsləndirib. İdeya Amerika dəmir yolu maqnatı Edvard Henri Qarrimanın xoşuna gəlib. O, hətta Şərqi Sibirdə dəmir yollarını tikməyi planlaşdırırdı və bunun üçün "Trans Alyaska-Sibir" səhmdar cəmiyyəti yaradılmışdı. Amma Rusiya hökuməti layihə üçün torpaq ayırmaqdan imtina edir və nəticədə şirkət müflis olur.

1960-cı illərdə isə Amerika mütəxəssisləri tunel vasitəsilə SSRİ və ABŞ-ın energetika sistemlərini birləşdirməyi təklif etdilər.

Alyaska 1867-ci il 30 mart tarixində Rusiya tərəfindən ABŞ-a 7,2 milyon dollara satılıb. 30 il sonra orada qızıl yataqları aşkarlanır və məşhur "qızıl dövrü" başlanır.

XX əsrdə isə Alyaskada ümumi ehtiyatları 100-180 milyard dollar təşkil edən böyük neft və qaz yataqları aşkarlanıb.

# BAKIDA "LOGİSTİKA VƏ TİCARƏT" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

***İyulun 15-də "ADA" Universitetində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" çərçivəsində ictimai müzakirələr silsiləsində "Logistika və Ticarət" mövzusunda tədbir keçirilib.***





Tədbiri Azərbaycan Respublikasının Prezidentinin İqtisadi islahatlar üzrə Köməkçisi Xidməti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC birgə təşkil edib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin direktoru Taleh Ziyadov müzakirəsi aparılan mövzunun əhəmiyyətini vurğulayıb. O deyib: "Ələtdə yaradılan "Azad Ticarət Zonası" qeyri-neft sektorunun inkişafına yönələn ən iri layihələrdən biridir. Bakı Azərbaycanın ətrafında olan bir çox liman mərkəzlərini özündə birləşdirəcək".

T.Ziyadovun sözlərinə görə, tranzit daşımalar görülən işin əsasını təşkil etsə də uzun müddətli olmaya bilər. Bunun üçün qeyri-neft sektorunun inkişafına yönələn layihələr əvəzsiz rol oynayır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi özünün həlledici bir mərhələsinə daxil olub. Strateji yol xəritəsində həm 2016-2020-ci illər, həm 2025-ci illərə qədər olan baxış, həm də 2025-ci ildən sonrakı dövr əhatə olunur. Qeyd edib ki, hər bir dövr üzrə logistika və ticarət ilə bağlı strategiyanın işlənməsinin böyük əhəmiyyəti var.

V.Qasımlı bildirib ki, Azərbaycan birbaşa dənizlərə çıxışı olmayan bir ölkədir. Ölkəmiz həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində çox ciddi bir infrastruktura sahibdir.

"Hazırda bu infrastrukturun daha da yaxşılaşdırılması istiqamətində işlər görülür. Bu sahəyə dövlət və özəl investisiyalar cəlb edilir. Azərbaycan öz tərəfdaşları – Gürcüstan, Qazaxıstan, Türkiyə, Rusiya və İranla tariflərin sadələşdirilməsi, prosedurların uyğunlaşdırılması və sayının azaldılması istiqamətində koordinasiya olunmuş şəkildə fəaliyyət göstərir. Bunlar nəticə etibarı ilə Azərbaycanın nəqliyyat logistika mərkəzinə çevrilməsinə zəmin yaradır. Azərbaycan kimi ikinci bir ölkə yoxdur ki, okeana çıxışı olmadığı və kiçik əraziyə sahib olduğu halda nəqliyyat logistika mərkəzi olsun. Bu Azərbaycanın üstünlüyüdür və ölkəmiz bundan qazanc əldə edəcək", - deyə V.Qasımlı vurğulayıb.

Azərbaycan Respublikasının Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi xidmətinin sektor müdiri Elxan Mikayılov deyib ki, ölkəmizin vaxtında iri layihələrə qoşulması hazırda ona iqtisadi regional sahədə böyük üstünlüklər verib. Tranzit və logistika mərkəzinin yaradılması da makroiqtisadiyyat və qeyri-neft sektoruna investisiya cəlbinin elementidir.

Maliyyə nazirinin müavini Emin Hüseynov bildirib ki, milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektorundan biri logistika və ticarətdir. Bu sahəyə xüsusi önəm ayrılmalıdır. Hazırda həmin istiqamətlərdə işlər görülür, planlar hazırlanır. "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizi Azərbaycanın regionda potensialını daha da artıracaq, eyni zamanda xarici şirkətlərin investisiya cəlbinə səbəb olacaq. Bununla da qeyri-neft sektorunun inkişafı sürətlənəcək.

Daha sonra "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin direktor müşaviri İlham Mehrəliyev "Qabaqcıl beynəlxalq təcrübə" və İstismar Departamentinin müdiri Euqene Seah "Qabaqcıl beynəlxalq təcrübə" Sinqapur təcrübəsi mövzularında təqdimatla çıxış ediblər.

# Rəqəmlərin dili ilə...

***2016-cı ilin ilk yarısında "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də göstərilən bütün xidmətlər üzrə ciddi artım müşahidə olunub.***

Limandan verilən məlumata görə, ən böyük artım iri həcmli nəqliyyat vasitələrində (TIR), o cümlədən qoşqu və digər avtotexnikanın daşınması üzrə qeydə alınıb.

Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə Bakı Limanının xidmətlərindən istifadə edən bu tipli nəqliyyat vasitələrinin sayı 4 dəfə artıb və əksər hallarda yükün son ünvanı Qazaxıstan və Türkmənistan olub.

Son altı ayda Bakı Limanı vasitəsilə 10 min 422 ədəd iri həcmli nəqliyyat vasitələri və digər avtotexnikanın aşırılması həyata keçirilib.

Bu rəqəm keçən ilin müvafiq dövrü ilə müqayisədə 7 min 758 ədəd artım deməkdir. Bunların 5 min 492 ədədi (52,7%) Bakı-Aktau-Bakı istiqamətində, 4 min 930 ədədi (47,3%) isə Bakı-Türkmənbaşı-Bakı istiqamətində hərəkət edib.

2015-ci ilin ilk altı ayı ilə müqayisədə TEU ekvivalentində konteynerlərin aşırılması 97% artaraq 8 min 887 TEU təşkil edib.

Neft və neft məhsullarının aşırılması isə 79% artaraq 810 min ton olub.

Ələt qəsəbəsində yerləşən yeni Bərə Terminalında vaqon aşırılması 1,6% artaraq 16 min 108 ədədə çatıb.

Bunlardan 3 min 277 vaqon (20,3%) Bakı-Aktau-Bakı istiqamətində, 12 min 831 (79,9%) vaqon isə Bakı-Türkmənbaşı-Bakı istiqamətində hərəkət edib. Hər iki istiqamətdə sərnişin daşınma isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 dəfə artaraq 9 min 605 nəfər olub.

Ümumi yükaşırmanın həcmi ötən ilin müvafiq dövrünə nisbətdə 36,2% artıb. Ümumi yükaşırmanın 85,3%-i tranzit yükaşırmanın payına düşmüşdür.Yük dövriyyəsinin artması ilə gəmi yanalmalarının sayı da 17,4% artıb.

Bakı şəhərində yerləşən Əsas Yük Terminalında aşırılan yüklərin miqdarı 2016-cı ilin son altı ayında keçən ilin müvafiq dövrü ilə müqayisədə 26,5% artaraq 267 min ton olub.

Aşırılan yüklərin böyük hissəsi tranzit konteynerlərinin və tikinti mallarının idxalının payına düşüb.

# DƏNİZDƏ EKOLOJİ MONİTORİNQLƏR BAŞA ÇATIB

***SOCAR-ın dənizdəki müəssisələrinin Xəzərin ekosisteminə təsir parametrlərinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və neft-qaz yataqları ərazisində ətraf mühitin ekoloji göstəricilərinin təyin olunması məqsədilə yazyay mövsümü üzrə keçirilmiş ekoloji monitorinqlər başa çatdırılıb.***



Şirkətin mətbuat xidmətindən bildirilib ki, monitorinq tədqiqatları "Ətraf Mühitin Mühafizəsi haqqında" Qanunun, beynəlxalq konvensiyaların, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin və SOCAR-ın Ekoloji Siyasət sənədinin tələblərinə uyğun olaraq neft-qaz yataqlarının yerləşdiyi ərazilər üzrə əvvəlcədən tərtib olunmuş monitorinq planına əsasən yerinə yetirilib.

Monitorinqlər zamanı layihə üzrə seçilmiş hər bir stansiyada okeanoloji parametrlər ölçülüb, su, dib çöküntüləri, fitoplankton və zooplankton nümunələri götürülüb və fiksasiya edilib. Ekspedisiya gəmisində quraşdırılmış səyyar laboratoriyada analitik cihazlar vasitəsilə nümunələrdə bir sıra fiziki parametrlər - hidrogen ionlarının qatılığı (pH), oksigenin miqdarı, suyun duzluluğu, elektrik keçiriciliyi və temperatur təyin olunub. Götürülmüş nümunələr kodlaşdırılaraq, daha ətraflı təhlillər üçün Ekologiya İdarəsinin Kompleks Tədqiqatlar Laboratoriyasına təhvil verilib. Laboratoriyada aparılmış analitik tədqiqatların nəticələri daxil edilməklə hər bir yataq üzrə mövcud ekoloji vəziyyət, flora və fauna, su və dib çöküntüləri nümunələrində çirklənmə səviyyəsi öyrənilir.

Son illər bu sahədə aparılmış işlərin, xidmət keyfiyyətinin, nəzarət tədbirlərinin gücləndirilməsi nəticəsində dəniz akvatoriyasının çirklənməsinin qarşısı alınıb, həmçinin dəniz suyunun özünübərpa prosesinin sürətlənməsinə imkan yaranıb. Ekoloji monitorinqlər zamanı götürülmüş nümunələrin laborator təhlillərindən dəniz biomüxtəlifliyinin artımı müşahidə edilib.

Ekoloji monitorinq əsasında Coğrafi İnformasiya Sistemində tərtib edilmiş xəritələr, monitorinq və laboratoriya təhlilləri əsasında hesabatlar hazırlanır, sonra isə Ekoloji Məlumatlar Bazasına daxil edilərək arxivləşdirilir.

# “DƏNİZ” 85




# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)

### Maşınlar və eleqtronasoslar arası kəsilmədən işləyir

Martın 29-da səhər “AQAMALI OQLU” teploxodu vaqtından bir saat qabaq sələmət bir halda reydə gəlib çıxmışdır.

Barzlar isə 12 saat gecikmişdir. Bu müddət ərzində teploxodun qomanda üzvləri firqə təhsili və texminimum ilə ihatə edilmişdir. Gecə “SURAXANI”, “RAMANI” və “TAGIT” barzlarına neft boşaldılmışdır.

Tankerin maşın və nasosları arası kəsilmədən işləyir.

Gəmi ekipajı, qapitan RƏÇƏBOV və siyasi muavin QRİSTALYOV yoldaşların rəhbərliyi altında bolşeviqcəsinə, təşkilatı surətdə işləyirlər. Radist QUREVİC həqiqi zərbəli iş numunələri göstərməklə, 2 gün arası-kəsilmədən radiorupqadan bayıra cıqmamışdır.

Martın 30-da səhər saat 7-yə 30 dəqiqə işlədikdə, “AQAMALI OQLU” teploxodu öz yükünü boşaldaraq, Bakıya doqru yönəlmişdir. Saatda 12 mil yol gedirik.

**ƏLƏKBƏROV,**
**“Qaspi bolşeviki” qəzeti, № 49 (560),**
**2 aprel 1935-ci il**

### Gəmimizi nümunəvi və qabaqcıl edəcəyik

Sabiq “PAVEL” teplexodu hazırda “PARİS QOMMUNASI” zavodunda təmirə dayanmışdır.

Biz qomanda heyəti bu teplexodun Baqırov yoldaş adı ilə adlandırılması ilə əlaqədar olaraq, aşaqıdakı təəhhudatı öhdəmizə alırıq.

1. Teplexod istismarə verildiyi gundən etibarən öhdəmizə daşınma sahəsində qoyulan butun vəzifələri şərəflə yerinə yetirməli, qomandanın adını ləkələyən kəsirə qəti surətdə yol verməməli.

2. Qomanda uzvuləri arasında bolşevik əmək intizamını möhkəmləndirib, sosyalizm əmlakını göz bəbəyi kibi qorumalı, sınfı sayıqlıqı artırmalı, mexanizmlərin qayqısına qalmalı.

3. Qomandamız, BAQIROV yoldaşın tələb etdiyi kibi çalışacaq, Azərbaycan proletaryatı ordenli rəhbərinin şərəfli adını bir daha doqrultacaqdır.

**Qapitan: QOMQOV**
**Yerli qomitə: TUR**
**“Qaspi bolşeviki” qəzeti, № 49 (560),**
**2 aprel 1935-ci il**

### “PARİS QOMMUNASI” ZAVODU YAY GƏMİ TƏMİRİNƏ BAŞLADI

Qaspi neft donanması tankerləri qış təmirindən buraqılmışdır. Bu tankerlər neft daşımaqa başlamışlardır.

Bu il qarşımızda duran əsas vəzifələrdən biri də, ölkəmizə taxıl, meşə materyalı, qooperativ malları və bu kibi mühüm quru yük daşımaqdır.

Yay gəmi təmirində nevbə ilə quru yük donanması gəmiləri təmirdən buraqılmalıdır. Odur ki, bu gəmiləri vaqtında və yüksək keyfiyətlə təmirdən buraqmaq, Bakı gəmi təmirat zavodlarının zərbəli işidir. Bu zavodlardan ancaq “PARİS QOMMUNASI” zavodu martın 25-ndə qış gəmi təmirinə yekun vuraraq, yay gəmi təmirinə başlamışdır. Zavodda bütün dəzgahların aramsız işləməsini təmin etmək üçün ayrı-ayrı sexlərə xüsusi ustalar təhkim edilmişdir ki, bu ustalar dəzgahları iş prosesində təmir edəcəklərdir. Bununla bir sırada qeyd etmək lazımdır ki, qış gəmi təmirində çatışmayan bəzi muhum alət və təchizat şeyləri yenə də əldə edilməmişdir ki, buda iş prosesində prostoyun əmələ gəlməsinə səbəb olacaqdır.

“PARİS QOMMUNASI” zavodunda ən gərəkli qabellər və şılanqlar hələ də əldə edilməmişdir. Qazançılar sexi üçün lazımı olan indiqator və miqrometri kibi muhum alətlər dəxi yoqdur.

Zavod, işçilərin yaşadıqı mənzillərin mədəni hala salınmasına fikir vermir.

“VANO STRUA” zavodunda yay gəmi təmirinə manelik göstərə biləcək məsələlərdən biri də, tökməçilər sexinin darısqal olmasıdır. Burada qazançılar sexi dəxi inşa edilməlidir.

“ZAQFEDERASYA” zavodunda yay gəmi təmirinə hazırlıq yaqşı aparılmır. Dəzgahların təmiri ləngidilir, kifayət adi işçi qüvvəsi əldə edilməmişdir.

Zavod müdiriyyətləri, tezliklə yay gəmi təmirinə manelik törədəcək bu noqsanları aradan qaldırmalıdırlar.

**“Qaspi bolşeviki” qəzeti, № 50 (561),**
**4 aprel 1935-ci il**

### Yukləri vaqtında göndərmək ucun butun imkanlar səfərbərliyə alınmalıdır

*(Bakı limanı 2-çi ucastoq nacalniki muavini Nisderjuq yoldaş ilə musahibə)*

Bizim ucastoq dəmir yol nəqliyyatı ilə sıqı surətdə əlaqədardır. Belə ki, su nəqliyyatı vasitəsilə gətirilən yukləri biz dəmir yolu, elədə dəmir yolu ilə gətirilən yukləri su nəqliyyatı vasitəsilə lazımı yerinə göndəririk.

Yukləri yerlərə göndərmək ucun vaqtında vaqon və gəmi verilməlidir. Lakin qeyd etməliyəm ki, bu sahədə hələ də qəti dönuş yaradılmamışdır.

Martın-26-nda ucastoqa 12 vaqon (276 ton) sement gətirilmişdir. Gəmi və tonnajın olmaması uzundən biz bu yuku vaqtında lazımı yerinə göndərə bilməmişik.

Bizə vaqtında gəmi verilmədikdə vaqonlar yuklə dolu halda ucastoqda qalmaqa məçbur olur ki, bunun da nəticəsində bir sıra səmərəsiz prostoy saatlarına yol verilir.

Digər tərəfdən yukləri boşaltmaq uçun kifayət qədər ambar yoqdur. Bakı limanı ilə dəmir yol açentəliyi arasında tərtib edilən plan uzrə Bakı limanı yanvar ayında dəmir yoluna 281 vaqon muxtəlif yuk verməli idi. Bu plan pozulmuşdur. Belə ki, bu miqdardan ançaq 150 vaqon verilmişdir. Yenə plan uzrə 221 vaqon import malları (kənaf, ipək, pambıq) verilməli ikən, 228 vaqon göndərilmişdir.

Yanvar ayında dəmir yolundan Bakı limanına 82 vaqon yuk verilməli ikən, bundan ançaq 35 vaqon və plandan ilavə olaraq 614 vaqon tranzit malları verilmişdir. Buradan da planın nə dərəçədə pozulduqu özu – özluyundə meydana cıqır.

Yuk vurma və boşaltma sahəsində baş verən səmərəsiz prostoy saatlarını ləqv etmək ucun vaqtında vaqon və gəmi verilməlidir. Odur ki, istər Bakı limanı və istərsə dəmir yol nəqliyyatı bu sahədə qəti tədbirlər görməlidirlər.

***“Qaspi bolşeviki” qəzeti, № 50 (561),***
***4 aprel 1935-ci il***

### Həmkarlar aqtivi müşavirəsi ərəfəsində

Qaspi dənizçilərinin həmkarlar ittifaqı tərəfindən aprelin 7-də hevzə həmkarlar aqtivinin geniş iclası çaqırılacaqdır.

İclasda dənizçilər ittifaqının birinci plenumu qərarları və 1935-nci il naviqasyasında duran nevbəti vəzifələr haqqında, məsələ müzakirə ediləcək və müşavirədə Maxaç – Qala, Qrasnovodsqi və Qara boqaz kibi Qaspinin limanlarından dəxi nümayəndələr iştirak edəcəkdir.

Əlbətdə iclasın mütəşəkkil surətdə keçirilməsi üçün “PARİS QOMMUNASI”, “Zaqfederasya” gəmi və “Vano Strua” zavodları, Bakı limanı və Qaspinin başqa təsərrüfat idarələri yerli qomitələri, həmkarlar aqtivlərinin sex qomitələri, həmkarlar müvəkkilləri, zavod və yerli qomitə üzvləri, təftiş qomisyənu üzvləri iclasda 100 faiz kütlənin iştirak etmələrini təmin etmək üçün imdidən lazımı tədbirlər görməlidirlər.

Qeyd etmək lazımdır ki, dənizçilərin mərkəzi qulubu iclasın keçirilməsi ilə əlaqədar olaraq, bir sıra şuarlar, bədii şəkillər, diyaqramlar ilə qulubun bəzənməsi məqsədilə xüsusi şəxslər ayırmışdır.

***“Qaspi bolşeviki” qəzeti, № 51 (562),***
***4 aprel 1935-ci il***

### İş proje uzrə qurulmamışdır

Bununla bir sırada qeyd etmək lazımdır ki, “LENİN” və “PROFİNTERN” tankerlərini inşa etdikdə “Qrasnoe Sormovo” zavodu gəmi qorpusu ağırlıqının prozedə göstərildiyinə nisbətən artıq olmasına yol vermişdir. Bu zavod yuqarıda adları qeyd olunan gəmilərdən sonra inşa etdiyi başqa gəmilər də bu səhvini düzəltməmişdir.

“Qrasnoye Sormovo” zavodu gəmi qorpuslarını inşa etdikdə bir seriadan başqa seriyaya kibi heç bir yaqşılaşdırmaq aparmamışdır. Halbu ki, Baltiq və Qara dənizdəki zavodlarımız, həmçinin xarici ölkə zavodlarının praqtiqasında hər bir sonrakı seriya uzrə qayrılan gəminin qonstruqsiyasında əhəmiyyətli dəyişiklik və yaqşılaşdırmalar aparıldığını göruruk. “Qrasnoye Sormovo” zavodu isə birinci seriya uzrə buraqılmış gəmilərin istismarı təcrubəsini hesaba almayaraq, gözə çarpan noqsanları aradan qaldırmamışdır. Ancaq “STALİN” və “JDANOV” teploxodlarında dəyişikliklər gözə çarpır. Bu gəmilərdə daha quvvəli və yeni qonstruksiyaları dviqatellər (hərəkət verici maşınlar) qoyulmuş və böyük efeqtlər əldə edilmişdir. Bu teplexodlar bir qədər qabaq buraqılanlara nisbətən daha artıq surətlə hərəkət edir. Surətin əhəmiyyəti isə hər kəsə bəllidir. Reys devriyyəsi ərzində əldə edilən bir saat naviqasia devrində bir ilavə reys deməkdir.

**“Qaspi bolşeviki” qəzeti, № 51 (562),**
**4 aprel 1935-ci il**

### Kəsir qomsomol gəmisi üçün ləkədir

Neft məhsulu daşınma planını müvəffəqiyyətlə ödəyən “L ŞMİDT” qomsomol gəmisi 35-nçi il yanvar ayından başlayaraq biyabırçasına geridə qalmaqdadır. Yanvar ayında edilən 6 reysdən ançaq ikisi kəsirsiz həyata keçirilmişdir. Ümumiyyətlə yanvar planı orta hesabla 83 faiz yerinə yetirilmişdir. Fevralda edilən 3 reysdə isə ançaq birinçi reys 100 faiz ödənilmişdir. 3-nçü reys isə biyabırcı kəsirlə yəni ançaq 71,5 faiz yerinə yetirilmişdir. Beləliklə, umum fevral ayı planı kəsirlə ödənilmişdir.

Gəmi mart ayında da kəsirdən cıqa bilməmişdir. Martın birinçi reysi ançaq 75,8 faiz, 3-nçü reysi isə 95,4 faiz həyata keçirilmişdir.

Bu biabırcı geriləmə qomsomol gəmisinə yaraşan deyildir. Planın yerinə yetirilməsini pozan prostoy və əmək intizamını pozmaq hallarına qarşı gəmi qomsomolcuları mübarizəni zəiflətmişlər. Qrasnovodsq və Maxac-Qala limanlarının təqsiri üzündən bu gəminin artıq dərəçədə prostoy etməsinə yol verilmişdir. Yalnız növbə gözləməyən gəmi 112 saatdan coq vaqt itirmişdir. Xususilə Qrasnovodsqda gəmini daha coq gecikdirirlər. Burada tək martın 13-də nevbə gözləməkdən “ŞMİDT” 26 saat 15 dəqiqə, 16-nda 27 saat, 23-də isə 37 saat 55 dəqiqə vaqt itirmişdir.

Planın yerinə yetirilməməsi səbəblərindən biri də son zamanlar yuqarı qomanda üzrə sərxoşluqla məşqul olmaq, əmək intizamını pozmaq hallarına qarşı mübarizənin zəif olmasıdır. Beləki, birinçi qlas matrosu LESOQOR və NOVİQOV sərxoşluq və əmək intizamını pozmaq üstündə töhmət almışlardır.

Yaqşı zərbəçilərin iş təcrübələrindən dəxi istifadə, edilməməsi kəsirə səbəb olur. Aşaqı qomanda üzrə ən yaqşı zərbəci qomsomolcular VESYONİN, VERŞYAKİN, SİYANİN, YERONİN yoldaşların müvəqffəqiyyətli təcrübələrindən istifadə zəifdir. Bu zərbəcilər maşının təmiz və araçsız işləməsini təmin etməklə, yanvarda 6 ton 710 kilo, fevralda 3 ton 382 kilo yanaçaqa qənaət etmişlərdir.

Qızıl bayraqlı “ŞMİDT” gəmisinin qomsomolcuları, kəsiri ən yaqın muddətdə təsviyə etməklə ləkəni uzərlərindən göturməlidirlər.

***L. QULİYEV,***
***“Qaspi bolşeviki” qəzeti, № 54 (565),***
***12 aprel 1935-ci il***

### Sabir Abad körpusunda firqə işini yuksək pilləyə!

Firqə işini yaqşılaşdırmaq məsələsi hazırda tam kəskinliyi ilə qarşıya qoyulmuşdur.

“Firqə qomitələri, sex firqə təşkilatcıları firqə iclaslarının gundəlikləri haqqında firqənin butun uzvlərinə iclasdan ən azı 2-3 gun əvvəl informasiya vermək, qoyulmuş məsələləri qabaqçadan zavod mətbuatında işıqlandırmaq, firqə iclasları məsələləri və qərarlarının hazırlanması və sairə firqə uzvlərini geniş cəlb etmək yolu ilə, firqə iclaslarını vaqtında və hər çihətdən hazırlamalıdırlar”.

Lakin qeyd etməlidir ki, bu muhum məsələ ətrafında Sabir – Abad körpusunun firqə təşkilatı hələ də butun quvvəsini səfərbərliyə ala bilməmişdir. İçlasların vaqtında caqırılmaması, obyeqtiv səbəblər uzundən vaqtında içlasa gəlməmək və sairə bu kibi hallar burada dəfələrlə baş vermişdir.

Firqə təşkilatcısı Musayev necə aylardan bəri Sabir – Abad körpusunə göndərilməsinə baqmayaraq, işində qəti dönuş yaratmamışdır.

Musayev körpudə necə nəfər qommunistin calışdıqını belə bilmir. Rəqbət bəsləyənlər qrupuna ançaq 8 nəfər çəlb edilmişdir ki, bunların arasında dəxi iş zəif aparılır.

Qommunistlər uzvuluk haqqının kimə veriləçəyini bilmirlər.

Musayev körpudə işçi təchizatı ilə dəxi az maraqlanmış, ona bu xususda muraçəət etdikdə “Mən ki ITŞ idarəsi deyiləm” deyə çavab verir. Bu isə Musayevə heç də yaraşmayan bir haldır.

Körpudə firqə işi mutləq çanlandırılmalıdır.

***“Qaspi bolşeviki” qəzeti, № 56 (566),***
***14 aprel 1935-ci il***

### Kütləvi-mədəni iş zəifdir

BANKƏ körpusundə calışan 9 nəfər yukcu arasında kutləvi-mədəni iş olduqca zəif qurulmuşdur. Yukculərin əksəriyyətinin savadsız olmasına baqmayaraq onlar ucun hələ də savad qursları açılmamışdır. Körpudəki mədəni guşədə şahmat və muxtəlif musiqi alətləri istifadəsiz olaraq bir tərəfdə atılıb qalmış və təsərrufatsızlıq nəticəsində sınıb xarab olmuşdur.

Mədəni guşəni yukculərə yarar bir hala salmaq məqsədilə son zamanlar körpudə bir otaq ayrılmışdır. Lakin yerli qomitə sədri ÇƏFƏROVUN işə soyuq baqması nətiçəsində bu otaqdan dəxi istifadə olunmayaraq, qapısı həmişə baqlı olur.

Butun bu noqsanlar nəzərə alınaraq yerli qomitə sədri, elə də yerli qomitənin butun heyəti yenidən secilmişdir. Yerli qomitə sədrliyinə adlı-sanlı yukculərdən və dəfələrlə mukafatlanmış MURADOV XAN – HUSEYN, katiblik vəzifəsinə isə qomsomolculardan MUSTAFAYEV yoldaşlar secilmişdir.

**MUXTAR**

### Yanan fanarlara artıq diqqət

Kur nəhrinin pavarotlarında (döngələri) qoyulmuş fanar və baqların gəmilər ucun böyuk əhəmiyyəti vardır. Bunların geçələr vaqtı-vaqtında yandırılmasına xususi diqqət yetirildiyi kibi, fanarları neft və şüşələrdən dəxi vaqtında təmin etmək yollar xidmətinin əsas vəzifəsi olmalıdır.

Ustidən Sabir-Abad körpusunə qədər 175 fanar və baqları (bu fanarların yandırılması işində 67 nəfər işçi çalışır) yandırılması işinə 20 il istehsalat ştajına malik olan dənizci ƏBİLOV yoldaş rəhbərlik edir. O, Kur nəhrinin butun şərayitini və pavarotlarını butunluklə mənimsəmişdir. ƏBİLOV yoldaş işdə səmərəli çalışdıqı ucun mukafatlanmışdır. Fanarların yandırılması işində yaqşı çalışan fanarcılar da az deyildir. SƏLYAN rayonunda olan fanarlara baqan Məmi Huseynov ən yaqşı fanarcıdır. O bu işdə 24-nçu ildən çalışır. Huseynov fanarını vaqtında yandırdıqı kibi, geçələr gələn gəmilərin qabaqına cıqır.

Avdalyan rayonunda fanarcı Baba Məhəmməd Qasım yoldaş dəxi Huseynovdan geri qalmır. O, bu işdə 20-çi ildən çalışır və yaqşı fanarcıdır.

***“Qaspi bolşeviki” qəzeti, № 56 (566),***
***14 aprel 1935-ci il***

### Bolşevik numunələr göstərirlər

Qaspidə 16-çı bolşevik naviqasiyasının ilk reysini acan “STALİN” tankeri ölkəmizin sənaye mərkəzlərinə neft məhsulu daşımaq sahəsində bolşevik numunələri göstərməkdədir. Bu tanker təmirdən cıqdıqdan sonra öz daşınma tapşırıqını sistematiq surətdə artıqlamasilə yerinə yetirir.

Tanker fevral ayında Maxac-Qalaya 10 reys edərək, aylıq planını 107 faiz yerinə yetirmişdir.

Mart ayında da Maxac-Qalaya 8, Astraxana isə 2 reys edilmişdir. Umumiyyətlə, mart ayı planı 108,2 faiz ödənilmişdir. Ayrı – ayrı reyslər uzrə daha yaqşı əlamətlər vardır. Belə ki, tanker 3-çü reys planını 111,9 faiz, 4-nçü reys 117,6, 7-çi reys 117,1, 8-çi reys 111,5 faiz yerinə yetirmişdir.

Aprel ayı planı dəxi muvəffəqiyyətlə ödənilməkdədir. Belə ki, birinci reys planı 102,6 faiz ödənilmişdir. Gəmi qapitanı STROYQOV yoldaş, gəmini elə idarə edir ki, limanlara yan almaq və dəniz yolunu qət etməkdə vaqta 3 saatdan artıq qənaət edir. Tanker Qasparın tapşırıqına görə Astraxana 74 saata gedib qayıtmalıdır. Lakin qomanda yalınız 3-nçu reysdə 68 saat 15 dəqiqəyə gedib qayıtmışdır.

### Özunu tənqidi genişləndirəlim!

Bu yaqın gunlərdə Qasparın FZŞ məktəbi daxilindəki həmkarlar qomitəsinin yeni heyəti seciləçəkdir. Haqq-hesab secgi qampaniyası qarşısında həmkarlar qomitəsinin məktəb daxilində gördüyu işləri yoqlamaq ucun xususi briqada ayrılmışdır. Bu briqada qomitənin bir sıra noqsanlarını aşkara cıqara bilmişdir.

Haqq-hesab secgi qampaniyası qarşısında göndərilmiş təlimat, məktəbin butun turk və rus qruplarında muzakirə edilmişdir. Bu munasibətlə tələbələr arasında sosyalizm yarışı daha da genişləndirilməkdədir. Maşinist, toqar və çilingər turk qrupları rus radyocular, eleqtriq və çilingər briqadalarını təhsilin yuksək keyfiyyətlə mənimsənilməsi uqrunda yarışa caqırmışlardır.

Bundan başqa tələbələr arasında fərdi yarış muqavilələri baqlamaq işi dəxi genişləndirilmişdir.

Qeyd etmək lazımdır ki, bu həmkarlar qomitəsi “PARİS QOMMUNASI” zavodunun həmkarlar qomitəsinə tabidirsədə, zavod həmkarlar qomitəsi sədri AREXOV, haqq-hesab və secgi qampaniyası munasibətilə məktəb daxilində həmkarlar qomitəsinə hec bir göstəriş verməmiş və umumiyyətlə bu sahədə səhlənkarlıq göstərmişdir.

AREXOV, həmkarlar secgisinə belə səhlənkarlıqla yanaşmaqdan əl cekməli və məktəbdə həmkarlar işinə yaqından rəhbərlik etməlidir.

***“Qaspi bolşeviki” qəzeti, № 57 (568),***
***18 aprel 1935-ci il***

### Xuliqanlar körpudən qovulmalı

15-nçi körpudə işcilər arasında əmək intizamı son zamanlarda zəifləmişdir. Burada calışan yukculər arasında mədəni – məarif işləri körpunun yerli qomitəsi tərəfindən ölgun bir hala salınmışdır. Birinçi qrup briqadası yukculərindən RUSTƏM körpuyə yeni gəlməsinə baqmayaraq, xuliqanlıqa başlamışdır. RUSTƏM coq vaqt boş vaqtını kucələrdə boşboqazlıqla kecirir. Aprel ayının 13-də bu adam zərbəci yukculərdən KƏRİMOVLA savaşmış və onu pıçaqla yaralamışdır. Bu iş körpu mudiriyyətinin nəzərinə catdırılmışdırsa da əhəmiyyətsiz buraqılaraq, hec bir tədbir görulməmişdir.

Rustəm kibi xuliqanlar körpudən qovulmalıdır.

***“Qaspi bolşeviki” qəzeti, № 57 (568),***
***18 aprel 1935-ci il***

### QASPİ YENİLİKLƏRİ

Neft donanmacılarının ayilələrinə yaqşı mədəni xidmət etmək ucun 8 otaq, bufet və sairədən ibarət gözləmə salonu aprelin 15-nə qədər hazırlanmış və istismarə verilmişdir. Otaqlar lazımi mədəni avadanlıqla təchiz edilməkdədir.

Sərnişinlərə daha yaqşı xidmət etmək və dəniz vaqzalının normal işini təmin etmək məqsədilə Qasparın nacalniki ZOF yoldaşın əmrinə görə aprelin 12-dən sərnişin biletlərinin qabaqçadan satışına başlanmışdır.

“PARİS QOMMUNASI” zavodunun işçi təçhizat şöbəsi 34-nçu il ticarət-maliyyə planını muvəffəqiyyətlə yerinə yetirdiyi ucun Umum İttifaq mukafatı hesabına 5000 manat miqdarında mukafatlanmışdır.

***“Qaspi bolşeviki” qəzeti, № 58 (569),***
***20 aprel 1935-ci il***

# TURİZM ŞİRKƏTLƏRİNƏ MÜRACİƏT EDƏN ŞƏXSLƏRƏ XƏBƏRDARLIQ EDİLİB

*Mədəniyyət və Turizm Nazirliyi əhaliyə xəbərdarlıq edib.*

Nazirlikdən bildirilib ki, bəzi turizm şirkətləri vətəndaşlara turizm məhsulunu təqdim edərkən ölkə qanunvericiliyində nəzərdə tutulan tələblərə riayət etmir və bu da vətəndaşlarda çaşqınlıq yaradır. Xarici ölkələrə turizm şirkətləri vasitəsilə səyahətlərini təşkil edərkən həmin şirkətin turist vauçerini, səfərlə bağlı ödəniş sənədlərini, eləcə də "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 9.1 maddəsinin tələblərinə uyğun olaraq şirkətlə müştəri arasında müqavilənin bağlanmasını tələb etmələri xahiş olunur. Bu kimi halların qarşısının alınması məqsədilə nazirlik "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin tələblərinə uyğun olaraq hazırlanan müqaviləni mütləq şəkildə tələb etməyi tövsiyə edir.

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Məlumata əsasən, müqavilə ölkə qanunvericiliyinə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyə uyğun olmalıdır: "Turist (alıcı) haqqında turizm məhsulunun satışı üçün zəruri olan həcmdə məlumat, səyahətin proqramı və marşrutu barədə məlumat göstərilməklə turizm məhsulunun istehlak xassələri, turistlərin təhlükəsizlik şərtləri, turizm məhsulunun sertifikatlaşdırılmasının nəticələri haqqında düzgün məlumat, tərəflərin hər birinin, səyahət vaxtı şəraitin əsaslı dəyişikliyi ilə əlaqədar olaraq, müqavilənin dəyişdirməyi və ya onu pozmağı tələb etmək hüququ var. Həmçinin turizm şirkəti tərəfindən təqdim edilən müqavilənin şərtləri diqqətlə oxunduqdan sonra imzalanması tövsiyə olunur".

Qeyd edək ki, turizm vauçeri – turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla, turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəddir.

# ƏN İSTİ YER HARADADIR?

***1913-cü il iyulun 10-da Kaliforniyanın "Ölüm vadisi" adlı ərazisində dünya üzrə maksimum temperatur - 56,66 dərəcə isti qeydə alınıb. Amma tezliklə, yəni 1922-ci il sentyabrın 13-də Liviyada 58 dərəcə rekord temperaturun olduğu müəyyən edilib. Ümumdünya Meteorologiya Təşkilatı ən isti yer kimi Liviyanı tanıyıb.***

ecoportal.ru saytı xəbər verir ki, temperatur rekorduna 2010-2012-ci illərdə Ümumdünya Meteorologiya Təşkilatının klimatologiya komissiyası tərəfindən yenidən baxılıb. Komissiya üzvləri bəzi şübhəli məqamları üzə çıxarıblar. Məlum olub ki, tədqiqatçılar Liviyada 7 dərəcə səhvə yol veriblər. Nəticədə komissiyanın qərarı ilə Yer üzündə ən isti yer "Ölüm vadisi" sayılıb.



Keçən ayın orta temperaturu 38,8 dərəcə ilə meteoroloji müşahidələr tarixində ən isti iyun olub. Müqayisə üçün deyək ki, havanın orta temperaturu Selsi ilə 105 il ərzində 35,2 dərəcə isti olub.

"Ölüm vadisi"ndə orta hesabla havanın temperaturu ilin 190 günü 32,2 dərəcə, 140 günü 37,7 dərəcə, 89 günü 43,3 dərəcə, 18 günü 48,8 dərəcədən artıq, 3 günü 51,6 dərəcə isti təşkil edir.

Niyə "Ölüm vadisi"ndə belə istidir? Çökəklik dəniz səviyyəsindən aşağıda yerləşir, Syerra-Nevada dağ silsiləsi isə Sakit okeandan gələn nəmin qarşısını alır. Vadi ensiz olduğundan hava burada işləmir və günəş enerjisinin qarşısını ala biləcək bitki örtüyü yoxdur. Səhra isə vadiyə çox yaxındır.

# QLOBAL TEMPERATUR GÖSTƏRİCİLƏRİ YENİ REKORDLAR VURUR

***BMT Xəbərlər Mərkəzi xəbər verir ki, alimlərin məlumatına görə, 2016-cı il meteoroloji müşahidələrin bütün tarixi ərzində ən isti yay ola bilər. İlin birinci yarısının orta temperaturu XIX əsrin sonunda başlayan sənayeləşmədən əvvəlki göstəriciləri Selsi ilə 1,3 dərəcə geridə qoyub.***

Dünya Meteorologiya Təşkilatının (DMT) nümayəndəsi Devid Karlson deyib: "Söhbət orta göstəricidən yüksək göstəricilərdən gedir. Biz əvvəllər qeydə alınmış bütün rekordları üstələyən göstəricilərdən danışırıq. İlin birinci yarısında bu rekordların hamısı təzələnib. Biz həm havanın temperaturunda, həm atmosferdə göstəriciləri gözlədiyimizdən xeyli çox olan karbon qazının miqdarında, həm də Arktika buzlaqlarının əriməsi sürətində sıçrayış müşahidə edirik".



Kəskin iqlim dəyişikliyindən irəli gələn mülahizələr ABŞ-ın Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin və NASA-nın Qoddard adına Kosmik Tədqiqatlar İnstitutunun mütəxəssislərinin iki müstəqil məruzəsində şərh olunub.

Orta temperatur durmadan artır. İyun ayı rekordlar sırasında 14-cü ay olub. Temperatur sonuncu dəfə 1984-cü ilin dekabrında orta göstəricidən aşağı düşüb.

DMT-nin başçısı Petteri Taalas deyib: "Hər ay bizə yeni rekordlar gətirir. Biz bu meyli uzun illərdir müşahidə edirik. 2015-2016-cı illərdə iqlim dəyişiklikləri göstəriciləri güclü El-Ninyo fenomeni fonunda yeni rekordlar vurub".

Alimlər xəbərdarlıq edirlər ki, "Qlobal qızdırıcı" El-Ninyo başa çatsa da, parnik qazları havaya təsir etməyə davam edir. Onların proqnozlarına görə, kəskin iqlim dəyişiklikləri ilə əlaqədar təbiət kataklizmlərinin - tropik siklonların, dözülməz isti və leysan yağışları dövrlərinin sayı artacaq.

## NAQQA BALIĞI KÖRPÜNÜN BƏRPASINA MANE OLUR

***Kaliningradda nəhəng naqqa balığı körpünün bərpasına mane olur, yəni o, körpünü təmir edən dalğıcları qorxudur.***

"Naqqa balığı bərpa olunan obyektin yaxınlığındakı çalada yaşayır.

Dalğıclar balığa mane olur və naqqa balığı da çox tez-tez onları qovaraq, işləməyə imkan vermir" – Kaliningrad şəhər Administrasiyası başçısının müavini Artur Krupin bildirib.

Dalğıclar danışırlar ki, balığın çəkisi 200-220 kiloqramdır. "Vısokiy" körpüsünün bərpasına cari ilin iyununda başlanıb və 2017-ci ilin mayına kimi başa çatdırmaq nəzərdə tutulur.

# 22 MİQRANTIN CƏSƏDİ TAPILIB

***İyulun 20-də Liviya sahilləri yaxınlığında rezin qayıqda 21 kişi və qadının cəsədi tapılıb. Onlar İtaliyaya yol alıblarmış.***

Sərhədsiz Həkimlər Təşkilatı (MSF) bildirir ki, Aralıq dənizində keşik çəkən qüvvələr iki qayıqda olanların köməyinə gəliblər, 209 nəfəri xilas edə biliblər. Onlardan 50-si uşaq olub.

Amma qayıqlardan birinin dibindən 22 miqrantın meyiti tapılıb.

MSF rəsmisi Jens Pagotto "Reuters" agentliyinə deyib ki, həmin şəxslər faciəvi şəkildə ölüblər, onların tüstüdən boğulduğu görünür.

Bu şəxslərlə birlikdə bu il İtaliyaya 80 mindən çox miqrant gəlib. Məlumatı BMT-nin qaçqınlar üzrə agentliyi yayıb.

# QAYIĞIN ÇEVRİLMƏSİ NƏTİCƏSİNDƏ 8 NƏFƏR HƏLAK OLUB, 20 NƏFƏR İTKİN DÜŞÜB

***Malayziyanın cənubunda yerləşən Cohor ştatında qayıq çevrilib. Hadisə nəticəsində 8 nəfər həyatını itirib, 20 nəfər isə itkin düşüb.***

İnsident yerli vaxtla saat 22:00-da baş verib. Qayıqda 62 İndoneziya vətəndaşı olub. Hazırda axtarış-xilasetmə əməliyyatları davam edir. İndiyə qədər 34 nəfərin xilas olduğu bildirilir.

Hadisəyə səbəb kimi qayığın mühərrikinin nasazlığı və dənizdə olan yüksək dalğalar göstərilir.



# YARIZARAFAT, YARIGERÇƏK

**Adam var, ağıldan başqa hara desən gələr.**

**Allah bizimlə olanda da biz harda oluruq e...?**

**Yaxşı ki, zəmanə var. Yoxsa bütün günahlarımızı kimin boynuna yıxardıq?**

**Bəzi adamlara üzlə astarı bir yerdə verməkməsləhətdir.**

**Adam var, Allah bütün günahlarını bağışlasa, ondan heç nə qalmaz.**

**Göz, nəyisə götürmək üçün məqbul olmadığından çox adamın gözü heç nəyi götürmür?**

**Çox adamın kürkünə təkcə antisanitariyaya görə birə düşmür.**

**Bəri başdan etiraf edim ki, qəzetçi olduğum üçün mənim ipimin üstünə ancaq və ancaq qəzet kağızı yığmaq olar...**

**Çox gəzən çox bilər o demək deyil ki, avaralar çox bilirlər.**

**Tutmağa bir şeyi olmadığı üçün hər şeyə bir qulp qoyurlar.**

**İnsan səhv edər o demək deyil ki, insanlığımızı yalnız səhvlərimizlə sübut edək.**

**Qara ciyər yeməyi xoşlayan ağciyər niyə olsun?**

**Fil qulağında ən çox nə qədər yatmaq olar?**

**Hər başına gələn başmaqçı olsaydı, indi şəhərdə başmaqçı əlindən tərpənmək olmazdı.**

**İgidliyini yoxlamaq üçün adamı atdan salırlar?**

**Əvvəllər ara qarışanda ən çox məzhəb itirdi. İndi deyəsən məzhəbini itirənlər ara qarışdırırlar.**

**Suya ehtiyacı olmayanlar da sıxıb başqasının suyunu niyə çıxarırlar?**

**Şərikli şey yaxşı olsaydı, yəqin ən əvvəl Allahın şəriki olardı.**

**Görəsən ötən seçkidə süd zavodunun direktoruna səs verənlərin neçəsi süd gölündə üzür?**

**Balta soyuq silah olmadığı üçün yıxılana balta vuranlar çoxdur?**

**İmanını yandıranlar arasında yanğınsöndürən də var?**

**Şeytanın neçə barmağı var ki, dünya belə qarışıb?**

**Mənim nə qədər bildiyimi məndən yaxşı bilən yoxdur. Amma hamıya elə gəlir ki, ən azı məndən çox bilirlər.**

**Antisanitariya olduğu üçün çox adamın üzünə tüpürmürlər?**

**Uşaqlarını "Malış"la böyüdənlər də halal süd əmmiş axtarır.**

**Bəzi adamları başa sala bilmirəm ki, mən öləndən sonra mənə heç nə lazım olmayacaq...**

**Yaxşı texnikaları olmadığı üçün bəzi ölkələrdə dovşanı araba ilə tuturlar?**

**Görəsən o dünyada da işim heç vaxt "xod" getməyəcək?**

**Nədən adamın əli yuxarı olanda bütün qohumlarının əli aşağı olur?**

**Deyirəm səsim olsaydı, nə oxuyardım: "Barı yada sal məni..."**

**Dən yemədikləri üçün bəziləri haqqında deyirlər ki, toyuq qədər ağılları yoxdur.**

**Yaxın olduğu üçün hirs adamın başından vurur?**

**Baltası olan mütləq yıxılan axtarmalıdır?**

**Keçinin qəssabdan niyə xoşu gəlməlidir ki?**

**Yaxşı ki, ət bahalaşır. Çox adamı hələ də keçi qiymətinə satırlar.**

**Başa düşmürlərsə, qandırmaq üçün hərəmizə neçə erməni düşür?**

**Poçtla göndərmədikləri üçün çox adama çox şey çatmır?**

**Daşı ətəyindən tökməyən adamın daş karxanasında nə işi?**

**Ya ağlın gücündən, ya da gücündən ağılla istifadə et.**

**Vallah, ağlı başında olanların hamısı ciblərində də bir şeyin olmasını istəyir.**

**Həqiqət niyə hər yerə gecikir?**

**Dostda yanılmaqdansa, düşməndə yanıl.**

**Dostdan ancaq qazanmaq üçün "dost" olanlar sonda düşmən qazanarlar.**

**Qoyunu, qurdla dost olana etibar etmə.**

**Yuxarıdan getmək təhlükəlidirsə, niyə çox adam yuxarıdan gedir?**

**Kəllə harda, "Bərəkallah" orda!**

**Ermənilər Çin istehsalıdır? Hardan baxırsan, zayı görünür.**

**Aranı qatan nə qədər çoxdursa, itirən də o qədər çox olur.**

**Çox şeyə göz yummağın xeyri də var. Heç olmasa gözlərin bir az dincəlir.**

**Sürünənlərin sayı artanda palaz dəbə minir.**

**Dədələrimiz düz bölməyiblər ki, indi dədə malı kimi bölmək dəb deyil?**

**Filankəsin başına and içənlərin çoxu içməyə bir şey tapmayanlardır?**

**Hər baxan görmədiyi, hər görən dərk etmədiyi üçün deyiblər: "Bir baxmısan, bir də bax"?**

**Burulmadığı üçün çox adamın qulağı ağrımır?**

**Bəzi adamlar üçün qərara gəlmək harasa gəlməkdən daha çətindir.**

**Rəng alıb-rəng verənə boya alverçisi demək olar?**

***Rasif TAHİROV***




## Basketbol üzrə Azərbaycan yığması Avropa çempionu olub



***On səkkiz yaşadək oğlan basketbolçulardan ibarət Azərbaycan yığması Avropa çempionatının "C" divizionunun qalibi olub.***

San-Marinoda keçirilən yarışın final matçında yığmamız Andorraya qalib gəlib.

Son çempion Andorra ilə qrup mərhələsində də qarşılaşan Tahir Baxşıyevin yetirmələri finalda rəqibdən güclü olaraq 74:57 hesabı ilə qələbə qazanıblar.

Qeyd edək ki, millimiz turnirdə keçirdiyi 5 oyunda dörd qələbə qazanıb. Qrupda Andorraya məğlub olan yığmamız, Cəbəllütariq və Monakoya qalib gəlib. Komandamız yarımfinalda Kosovodan üstün olub.

# AZƏRBAYCAN MİLLİSİ BƏDİİ GİMNASTİKA ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINI 1 MEDALLA BAŞA VURUB

***İyulun 24-də Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə Dünya Kuboku yarışlarına yekun vurulub. İdmansevərlərimiz ilin əsas hadisəsi olan Rio Olimpiadasından iki həftə əvvəl dünyanın 17 ölkəsindən məşhur gimnastların çıxışlarını izləmək imkanı əldə ediblər.***

Yarışın sonuncu – üçüncü günündə gimnastlar fərdi proqram üzrə final yarışına çıxıblar.

Mötəbər yarışda topla fərdi proqram üzrə final yarışında rusiyalı gimnast Marqarita Mamun 19.400 xalla qızıl medal qazanıb. Digər rusiyalı Aleksandra Soldatova 19.000 xalla gümüş, İsrail təmsilçisi Neta Rivkin isə 18.500 xalla bürünc medala sahib olub. Azərbaycan gimnastı Marina Durunda 17.900 xalla yeddinci olub.

Halqa ilə yarışlarda da rusiyalı gimnastlar fərqləniblər. Yana Kudryavtseva (19.450 xal) qızıl, Marqarita Mamun (18.550 xal) gümüş, Fransa gimnastı Kseniya Mustafayeva (18.500 xal) isə bürünc medala sahib olublar.

Gürzlərlə final yarışında Yana Kudryavtseva və Marqarita Mamun eyni -19.400 xal topladıqları üçün fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Fransa təmsilçisi Kseniya Mustafayeva yarışı üçüncü pillədə başa vurub.

Lentlə yarışlarda isə Azərbaycan gimnastı Marina Durunda 18.500 xalla bürünc medal qazanıb. Yarışda 19.400 xal toplayan Marqarita Mamun və Yana Kudryavtseva qızıl medala sahib olublar.








Qrup hərəkətləri yarışında komandalar 5 lent, 3 gürz və 2 halqa ilə final mərhələsində mübarizə aparıblar.

Beş lent ilə mübarizədə İsrail komandası 18.500 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rusiya kollektivi 18.350 xalla ikinci, İspaniya millisi isə 18.250 xalla üçüncü pillədə qərarlaşıblar. Azərbaycan yığması 18.100 xalla yarışı beşinci pillədə başa vurub.

Üç gürz və 2 halqa ilə qrup yarışlarında Rusiya komandası 19.000 xalla qızıl medala sahib olub. İtaliya komandası 18.500 xalla gümüş, İspaniya yığması isə 18.300 xalla bürünc medal qazanıblar. Azərbaycan komandası 17.750 xalla beşinci olub.

Sonra mükafatlandırma mərasimi təşkil olunub. Həmçinin Dünya Kubokunun əvvəlki mərhələ yarışlarında uğurla çıxış edən gimnastlara Beynəlxalq Gimnastika Federasiyasının xüsusi kuboku təqdim edilib. Bu dəfə də rusiyalı gimnastlar fərqləniblər.

Tədbir qala-konsert və bağlanış mərasimi ilə davam edib. Dünya Kubokunun bağlanış mərasimi açılış mərasiminin məntiqli davamı olub. Bağlanış mərasiminin əsas qəhrəmanı qismində yenə də Azərbaycana gələn və ölkənin gözəllikləri ilə tanış olan Balaca şahzadə çıxış edib. Ssenariyə əsasən, artıq Azərbaycanın bütün gözəl yerlərini gəzmiş Balaca şahzadə Yanardağdan öz evinə üz tutmağa başlayır. O, bu dağın atəşini bizim ən yaxşı idmançımız Marina Durundaya verir. O da odla digər yerlərdən keçməyə başlayır. Onlar sahələrdən, üzüm bağlarından və digər yerlərdən keçərək, Şamaxı Rəsədxanasına qayıdırlar.

Kompozisiyada bədii gimnastika, idman gimnastikasını, batut gimnastikası, akrobatika, aerobikanı təmsil edən müxtəlif yaşlı idmançılar iştirak ediblər.

## "Xəzər Kuboku–2016" beynəlxalq yarışlarında iştirak edəcəklər



***İyulun 30-dan avqustun 13-dək Rusiya Federasiyasında "Beynəlxalq Ordu Oyunları–2016" yarışlarının keçirilməsi planlaşdırılır.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, yarışlar çərçivəsində təşkil ediləcək "Xəzər Kuboku–2016" və "Tank biatlonu–2016" müsabiqələrində Silahlı Qüvvələrimizin nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Mahaçqala limanı yaxınlığında keçiriləcək "Xəzər Kuboku–2016" beynəlxalq yarışında ölkəmizi təmsil edəcək Hərbi Dəniz Qüvvələrinin iki gözətçi və bir xilasedici yedək gəmisinin, eləcə də onların ekipajlarının iyulun 21-də təntənəli yola salınması mərasimi keçirilib.

"Xəzər Dənizi–2016" yarışlarında iştirakla yanaşı, hərbi dənizçilərimiz Mahaçqala şəhərində olduqları müddətdə digər ölkələrin gəmi ekipajları ilə qarşılıqlı görüşlər, ziyafətlər, mədəni-kütləvi və digər tədbirlər keçirəcəklər.




## "Pxençxan-2018" Qış Olimpiya və Paralimpiya oyunlarının talismanları müəyyənləşib



***Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsi 2018-ci ildə Koreya Respublikasının Pxençxan şəhərində təşkil olunacaq Qış Olimpiya və Paralimpiya oyunlarının talismanlarını təsdiqləyib.***

Təşkilatçılar Olimpiadanın talismanı üçün ağ pələng seçiblər. Koreya mifologiyası və mədəniyyətinə görə, ağ pələng güvən, güc və təhlükəsizlik simvoludur.

Paralimpiya Oyunlarının simvolu isə Himalay ayısı seçilib.

Qış Olimpiya Oyunları 2018-ci il fevralın 9-dan 25-dək, Paralimpiya Oyunları isə martın 9-dan 18-dək keçiriləcək.




### ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Cəmiyyətin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Elşad Abdullayevə, qardaşı

**Etibar İslam oğlu Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2061